Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

17-19 AVQUST 2019-cu il

№ 143 (4041)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QAÇILMAZ DÜNYA BÖHRANININ İKİNCİ MƏRHƏLƏSİNDƏ AZƏRBAYCAN ƏN HAZIRLIQLI ÖLKƏLƏR ARASINDA...

səh. 4



səh. 5

## Amulsar mədəni Göyçə gölünü və Cermuk sularını zəhərləyən mənbə kimi - Paşinyanın xalqı aldatmaq planı...



**Ermənilər Vəli Xuluflunu tutdurub «Koroğlu»nun əsasında saxta «Sasunlu David» dastanını necə quraşdırdılar?**

səh. 6



**Erməni xalqı Paşinyanı addım-addım deşifrə edir - «2050-yə hesablanmış vədlər nağıldır»**

səh. 8

**Gürcüstandan gələn «Mercedes»də sənədlərini və pulunu itirən Çin vətəndaşının da köməyinə polislər yetişdi...**

səh. 7

Patruşevin səfəri barədə Ermənistan hökumətinin məlumatı - Paşinyanın Qarabağ siyasətini ifşa edən fakt...

səh. 9

Azərbaycan sərhədçiləri təmas xəttində strateji əhəmiyyətli mövqeləri ələ keçirdi

səh. 2

Paşinyan ilyarımlıq uğursuzluğunun məsuliyyətini baş müşavirlərinin üstünə atır...

səh. 3

Mnatsakanyan Uruqvayda Qarabağ danışıqlarının dinamikasından danışdı, əslində, Paşinyan ələ salınır...

səh. 5

Sələmçilərin qanunsuz fəaliyyətinin fəsadları getdikcə çoxalır...

səh. 10

Dərbənddə Azərbaycan Dövlət Dram Teatrının başında nə var?

səh. 15

16 yaşadək uşaqlarınızı yeni bəladan qoruyun - Tik-tok

səh. 14

səh. 3

Ermənistan rəsmiləri Azərbaycana qaçmış son fərari əsgər üzərində niyə bu qədər əsir...



səh. 13

Gürcüstan istehsallı ərzaq məhsullarında təhlükəli maddə - Məsələyə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi də reaksiya verdi



səh. 12

Universitetlərimizin yataqxanaları xaricilərin xidmətində, öz tələbələrimiz kirayə qapılarda...



səh. 11

Bakının 6 rayonunda köhnə binaların sökülməsi paytaxtın görkəmini necə dəyişəcək...



səh. 11

Muzeylərin Turizm Agentliyinə verilməsi ilə nə dəyişəcək...





## Xəzərdə qəzaya uğramış hərbi təyyarəmizin yeni qalıqları tapıldı

**İyulun 24-də qəzaya uğramış Azərbaycan Hərbi Hava Qüvvələrinin təyyarəsinin qalıqları tapılıb. Türkiyənin Milli Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, Türkiyənin Dəniz Qüvvələri Komandanlığı tərəfindən Xəzər dənizinə düşən "MİQ-29" təyyarəsinin qalıqları tapılsa da, R.Atakişiyevin meyitinin və "qara qutu"nun axtarılması istiqamətində işlər davam etdirilir.**

Qalıqlar Türkiyə Dəniz Qüvvələri Komandanlığının Sualtı Axtarış və Xilasetmə Birliyi tərəfindən aşkar edilib.

"Türkiyə Hərbi Dəniz Qüvvələrinin sualtı axtarış xilasetmə qrupu Xəzər dənizinə düşmüş Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin qalıqlarının sudan çıxarılması istiqamətində işləri davam etdirir". Baki-xeber.com-un xəbərinə görə, bu barədə Türkiyə Müdafiə Nazirliyinin Twitter mikrobloqunda dərc olunmuş məlumatda bildirilir.

Nazirlik qeyd edir ki, pilotun və qara qutunun axtarışları hava şəraitinə uyğun həyata keçirilir.

Xatırladaq ki, iyulun 24-də saat 22 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən HHQ-nin "MiQ-29" təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. İlkin ehtimala görə, aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb.

Qəza nəticəsində "MiQ-29" təyyarəsinin pilotu polkovnik-leytenant Rəşad Atakişiyev itkin düşüb.

## Dövlət Sərhəd Xidməti 24 nəfər azərbaycanlı casusu ifşa edib



**Dövlət Sərhəd Xidmətinin (DSX) fəaliyyəti dövründə Azərbaycan sərhədçiləri tərəfindən 10 min 989 sərhəd pozucusu, 160 min 428 nəfər rejim pozucusu, 37 min 789 nəfər axtarışda olan şəxs saxlanılıb, külli miqdarda qaçaqmalın, o cümlədən 6 ton 372 kq narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb.**

"Trend"in məlumatına görə, bunu Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev deyib.

E.Quliyev bildirib ki, bu illər ərzində Dövlət Sərhəd Xidməti tərəfindən Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində xarici xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilən 18 nəfər və əlaqədə şübhəli bilinən 86 nəfər Azərbaycan, 24 nəfər xarici vətəndaş aşkar olunub, terrorçuluğa qarşı mübarizə çərçivəsində 91 şəxs saxlanılıb, 388 nəfərin şəxsiyyəti müəyyən edilib.

General-polkovnik vurğulayıb ki, qanunsuz miqrasiya, qaçaqmalçılıq, o cümlədən narkotik qaçaqmalçılığı ilə məşğul olan 150 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilib: "Bu statistik rəqəmlərin arxasında zabit və gizirlərimizin, çavuş və əsgərlərimizin gündəlik fədakar xidməti və qəhrəmanlıqları dayanır.

Bu gün əsas hədəfimiz işğal altında olan ərazilərimizdə sərhəd mühafizəsinin qurulmasıdır. Bu, hər bir Azərbaycan sərhədçisinin müqəddəs vəzifəsi və şərəf işidir!

2016-cı ilin aprelində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında ən müasir silah və texnika ilə təchizatlanmış Silahlı Qüvvələrimiz tərəfindən düşmənin təxribatına cavab olaraq onun alınmaz hesab etdiyi mövqeləri, dislokasiya yerləri, komanda-dayaq məntəqələri, qərargahları dəqiq zərbələrlə darmadağın edildi, bununla da hərbi qüdrətimiz bütün dünyaya nümayiş etdirildi. Bu döyüş əməliyyatlarında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının yaxından iştirakı, ümumi qələbənin əldə olunmasına ciddi töhfə verməsi hər bir Azərbaycan sərhədçisinin qürur yeri, Azərbaycanın sərhəd mühafizəsi tarixinin daha bir şanlı səhifəsidir!".

# Azərbaycan sərhədçiləri təmas xəttində strateji əhəmiyyətli mövqeləri ələ keçirdi

**Baki-xeber.com "Azeri Defence"ə istinadən xəbər verir ki, düşmənin Babakər dağı istiqamətində mövqelərini önə çəkmə cəhdlərinə qarşı DSX tərəfindən önləyici tədbirlər həyata keçirilib.**

Belə ki, Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının ərazidəki bölmələri düşmən tərəfindən yeni mövqelərin ələ keçirilmə niyyətlərinə qarşı hərəkətə keçərək, sərhəd döyüş məntəqələrini bir sira istiqamətlərdə daha irəli çəkməyə nail olublar.

Sərhədçilərimiz tərəfindən tutulmuş yeni mövqelərdən düşmənin Ermənistan Respublikası ərazisindəki döyüş postlarına və bu postları birləşdirən yollara nəzarət imkanı əldə olunub. Eləcə də düşmən tərəfindən əvvəllər atəş altına tutulan yaşayış məntəqələrinə olan təhlükə aradan qaldırılıb.



Dövlət Sərhəd Xidmətinin Aparat rəhbəri, general-mayor Elçin İbrahimov da Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 100 illiyi ilə bağlı keçirilən mətbuat konfransında deyib ki, Azərbaycan sərhədçiləri təmas xəttində bir neçə mövqedə irəliləyib və strateji yüksəklikləri əldə edib.

Aparat rəhbərinin sözlərinə görə, hazırda Ermənistan-Azərbaycan sərhədinin Qazax və Ağstafa ərazisindən keçən hissəsində sərhəd hissələri tərəfindən xidmət təşkil olunur: "Bu, böyük prosesin başlanğıcıdır və davam edəcək. Bu qərarın qəbul olunması Azərbaycan ordusunun hərbi birləşmələrinin döyüş qabiliyyətinin yüksəldilməsinə yönələn qərar idi. Ötən 9 ay müddətində şəxsi heyətin döyüş qabiliyyəti gücləndirilib, bir sıra əhəmiyyət kəsb edən hissələrdə mövqelərin irəli çəkilməsi təmin edilib. Keçən ilin sonunda burada xidmətə başlayan hərbi qulluqçular üçün 75 sərhəd döyüş məntəqəsi inşa edilərək istifadəyə verilib".

E.İbrahimov deyib ki, Azərbaycan sərhədçiləri bir sıra istiqamətlərdə strateji əhəmiyyətli mövqeləri tutub: "Bu, Ermənistan silahlı qüvvələrinin döyüş postlarını və postlara hərəkət edən yollara nəzarət etmək üçün optimal şərait yaradıb. Şəxsi heyətin təhlükəsiz hərəkəti üçün val yolları çəkilməsi təmin edilib. Bu müddətdə düşmən mövqelərində hərbi maşına atəş açılıb və 2 hərbi qulluqçumuz yaralanıb. Düşmənin döyüş mövqeləri adekvat cavab atəşi ilə susdurulub".

Bu barədə tərəfimizdən daha geniş material hazırlanır.

# Baş Prokurorluq intiharlarla bağlı KİV-ə müraciət etdi

**Bir çox mütəxəssislər hesab edirlər ki, KİV-də intihar xəbərlərinin yer alması belə hadisələrinin insanların gözündə adiləşməsinə gətirib çıxarmaqla yanaşı, həyatda ümidsizliyə qapılıb psixoloji sarsıntı keçirən insanların diqqətini cəlb edir və onlarda intihar meyllərini artırır.**

Bununla bağlı "Trend"in sorğusuna cavab olaraq Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib ki, prokurorluq intihar hadisələrinin ictimailəşdirilməsinin əleyhinədir: "Bu kateqoriyadan olan cinayət hadisələrinin kütləvi informasiya vasitələrində yayılması insanların, xüsusilə gənclərin psixologiyasına mənfi təsir göstərir. Bəzi hallarda insanlar ümüdsüzliyə qapılaraq çıxış yolunu özünə qəsd etməkdə görürlər və KİV-də yer alan bu cür yazılar dərhal onların diqqətini cəlb edir".

Baş Prokurorluğun sözçüsünün sözlərinə görə, intiharın səbəblərinə gəlincə, onlar müxtəlifdir. Bu səbəblər psixoloji və sosial səbəblər, psixiatrik və digər xəstəliklər ola bilər: "İntihar hadisələrini ölkənin iqtisadi



durumu ilə əlaqələndirmək qətiyyən düzgün deyil. Belə ki, Norveç adambaşına düşən ümumdaxili məhsulun həcminə görə dünyanın ən inkişaf etmiş ölkələrindən biri olmasına baxmayaraq, orada intihar hadisələrinin sayı da olduqca yüksəkdir. Lakin buna baxmayaraq, həmin ölkədə fəaliyyət göstərən KİV intihar hadisələrini ümumiyyətlə işıqlandırmır".

**E.Sultanov həmçinin qeyd edib ki, Azərbaycanda intihar hadisələrinin sayı Avropa və MDB ölkələri ilə müqayisədə azlıq təşkil edir.**

İntihar hadisələrinin Azərbaycandakı artım tempinə gəldikdə isə, E.Sultanov qeyd edib ki, bu artım cüzidir.

# İrana qarşı İsrail - Birləşmiş Ərəb Əmirlikləri ittifaqı...

**İsrail və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ABŞ-ın vasitəçiliyi ilə təhdid kimi gördükləri İranla bağlı gizli görüşlər keçirdikləri iddia edilir.**

Baki-xeber.com xəbər verir ki, "Wall Street Journal"ın ABŞ rəsmilərinə istinadən verdiyi məlumata görə, İsrail və BƏƏ rəsmiləri "artan İran təhlükəsinə qarşı məlumat mübadiləsi" üçün bir neçə dəfə gizli görüşlər keçirib.



ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Hukun təşkil etdiyi görüşlərdən birincisi yazda, ikincisi isə qısa müddət əvvəl keçirilib.

ABŞ rəsmiləri İsrail və BƏƏ arasındakı danışıqların İranla münasibətlərdə diplomatik, hərbi və kəşfiyyat əməkdaşlığının artırılması məqsədi daşıdığını deyib.

İsrailin ərəb ölkələri arasında xüsusən də İsrail-Fələstin münaqişəsi ilə əlaqədar olan fikir ayrılıqlarına görə yalnız Misir və İordaniya ilə diplomatik əlaqələri mövcuddur.

# Ermənistan rəsmiləri Azərbaycana qaçmış son fərari əsgər üzərində niyə bu qədər əsir...

**Məlum olduğu kimi, bu günlərdə erməni əsgəri Kazaryan Aro Xaykoviç işğal altındakı Dağlıq Qarabağ bölgəsinə yerləşdirilmiş erməni hərbi birləşmələrindən fərarilik edərək, ağ bayraqla Azərbaycan tərəfinə təslim olub.**



***Əhməd Şahidov:** "Erməni rəsmiləri yaxşı bilirlər ki, Kazaryanın fərarilik etməsi orduda mövcud olan acınacaqlı vəziyyəti bütün çılpaqlığı ilə ortaya qoyur"*

Belə ki, Kazaryan avqustun 12-də səhər saatlarında cəbhənin Füzuli istiqamətində işğalçı ordudan qaçaraq, Azərbaycan Ordusuna sığınıb. O, xidmət etdiyi hərbi hissədə mövcud olan özbaşınalıq, qeyri-insani münasibət, komandirlərinin və digər əsgərlərin təzyiqinə məruz qaldığı üçün fərarilik etdiyini deyir. Bu səbəbdən orduda xidmət etmək istəmədiyini bildirib. Bu onu göstərir ki, Kazaryan üzləşdiyi təhqirlərə və alçaldılmasına dözməyərək, şüurlu şəkildə qaçmaq planı qurub. Səhər saatlarında postda olanda tək qalan kimi silahını qoyaraq, qaçıb. Erməni əsgərin üzərindəki zədələr, xüsusilə əlində popiros kötüklərinin söndürülməsi nəticəsində yaranan izlər erməni hərbi birləşmələrində baş verənləri əyani şəkildə göstərir.

Ancaq qəribədir ki, Kazaryanın ordudan dözülməz şərait üzündən qaçmasını etiraf etməsinə və bu səbəbdən xidmət etmək istəmədiyini deməsinə rəğmən, Ermənistan rəsmiləri hər vəchlə buna başqa don geydirirlər. Gah deyirlər ki, erməni əsgəri azaraq Azərbaycan ərazisinə keçib. Eləcə də özlərindən uydururlar ki, sözügedən əsgər oğurlanıb və s.

Maraqlıdır, erməni rəsmiləri Azərbaycana qaçmış fərari əsgər üzərində niyə bu qədər əsirlər?

Məsələyə münasibət bildirən Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov Ermənistan rəsmilərinin bu yöndə narahatlığını bir sıra amillərlə əlaqələndirdi: "Kazaryan amili Ermənistan ordusunda acınacaqlı vəziyyətin keçmiş rejimin dövründəki kimi davam etdiyini əyani şəkildə sübut etdi. İndiyə qədər erməni mediası orduda korrupsiyanın, özbaşınalığın, qeyri-insani münasibətlərin olduğunu yazır, komandirlərin əsgərləri təhqir etdiyini, əsgərin əsgəri pis əməllər üçün istifadə etdiyini qeyd edirdilər. Kazaryanın Azərbaycan tərəfinə keçməsi bunu bir daha təsdiq etdi. Müayinə zamanı onun üzərində işgəncə izlərinin olması bir daha Ermənistan ordusunda fərariliyin, "dedovşina"nın və bu kimi digər problemlərin olduğunu ortaya qoydu. Azərbaycan mətbuatı bu məsələni işıqlandırdıqdan sonra Ermənistan cəmiyyətində xeyli gərginlik yaranır. Bu da təbii ki, Paşinyan hakimiyyətinə inamsızlığı artırır. O üzdən, bütün bunlara görə erməni rəsmiləri bərk narahatdırlar. Hər vasitə ilə əsgərin fərarilik etməsinə başqa don geydirməyə səy göstərirlər. Bu minvalla, sanki daxili auditoriyaya hesablanmış açıqlamalar verirlər. Çünki onlar yaxşı bilirlər ki, Kazaryanın fərarilik etməsi Ermənistan ordusunda mövcud olan acınacaqlı vəziyyəti bütün çılpaqlığı ilə ortaya qoyur. Ona görə də bütün vasitələrlə bunu örtməyə çalışırlar. Hər vəchlə həqiqətləri xalqdan gizlətməyə çalışırlar. Məsələnin kökündə dayanan başlıca məqam bununla bağlıdır. Görünən odur ki, Paşinyanın ötən il inqilab zamanı verdiyi vədlərin heç biri reallaşmır. O cümlədən, orduda da vəziyyət müsbətə doğru dəyişməyib, əksinə, mənfiyə doğru gedir. Bununla yanaşı, Azərbaycan Ordusu təmas xəttini irəli çəkir. Bütün bunlar Ermənistan cəmiyyətində narazılıqları artırır. Onu da qeyd edim ki, yaxın günlərdə Kazaryanın başına gələnlərlə bağlı etiraf dolu müsahibələri, videoaçıqlamaları olacaq. Bu da Ermənistan cəmiyyətini xeyli silkələyəcək".

*"Ona görə də bütün vasitələrlə bunu örtməyə və hər vəchlə həqiqətləri xalqdan gizlətməyə çalışırlar"*

***Vidadi ORDAHALLI***

# Paşinyan ilyarımlıq uğursuzluğunun məsuliyyətini baş müşavirlərinin üstünə atır...

**Avqustun 15-də Ermənistanın Baş naziri Nikol Paşinyan komandasının 3 üzvünü - iki müşavirini və köməkçisini vəzifədən azad edib. Bunun səbəbi açıqlanmır. Ermənistan KİV-inin məlumatına görə, sözügedən şəxslər iqtisadi bloka görə məsul idilər.**



***Məhəmməd Əsədullazadə:** "İstənilən halda, bütün bunlar Paşinyanın uğursuz idarəçiliyinin göstəricisidir"*

Belə ki, cümə axşamı Baş nazirin baş müşavirləri Arsen Qasparyan, Aram Qaribyan, habelə Baş nazirin köməkçisi Mqer Saakyan vəzifədən azad ediliblər. Hökumətdən bu istefaları şərh etməyiblər. Qeyd edək ki, Qasparyan bundan öncə dəfələrlə Rusiya mətbuatının təzyiqlərinə məruz qalıb. Mətbuat Qasparyanı Mərkəzi Kəşfiyyat İdarəsi ilə əlaqədə ittiham edib. Qasparyan bundan əvvəl 7 il müddətində Serj Sarkisyanın baş müşaviri kimi çalışıb.

Digər tərəfdən, Ermənistanda bir sıra müşahidəçilər baş verənləri Paşinyan komandasında dərinləşmə təmayülü olan böhran və fikir ayrılıqlarının göstəricisi kimi qiymətləndirirlər. Başqa bir tərəfdən, bu həm də onun göstəricisidir ki, Paşinyanın ilyarımlıq hakimiyyəti bir sıra uğursuzluqlarla müşahidə olunur. Faktiki olaraq, ötən müddət ərzində Ermənistan Baş naziri hansısa sahədə dönüş yarada bilməyib. Ona görə də Paşinyan uğursuzluğun məsuliyyətini müşavirlərin üstünə atır. Bu minvalla, özünü sığortalamaqla bağlı uğursuz gediş edir.

Maraqlıdır, ekspertlər Paşinyanın son addımını bu baxımdan necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə prizmadan yanaşdı: "Ermənistan Baş naziri Nikol Paşinyanın öz iki müşavirini işdən çıxarması, hesab edirəm, Moskvanın diqtəsi ilə baş tutub. Rusiya Təhlükəsizlik Şurasının katibi Patruşevin İrəvana səfəri fonunda iki müşavirin işdən çıxarılması təsadüfi deyil. Çünki həmin müşavirləri Rusiya Mərkəzi Kəşfiyyat İdarəsinin agenti hesab edirdi. Rusiya mətbuatı yazırdı ki, həmin şəxslər anti-Rusiya fəaliyyəti ilə məşğuldurlar. Ona görə də bu kimi dəyişikliklər siyasi proseslərdən irəli gəlir. Bundan əlavə, məlum qərar onu göstərir ki, Paşinyanın idarəetmə sistemi populizmə əsaslanır. Onun adamları hələ də inqilabın eyforiyası ilə yaşayırlar və hesab edirlər ki, ölkəni "Qarabağ klanı"ndan azad etdikləri üçün xalq bunlara minnətdar olmalıdır. Ona görə də ölkə idarəetmə sistemində boşluqlar baş verir. Hesab edirəm ki, Paşinyanın komandası getdikcə Rusiyapərəstlərdən ibarət olacaq. Moskva çalışır ki, Vaşinqtonyönümlü şəxslər sistemdən uzaqlaşsın və bununla Paşinyan ətrafına öz adamlarını gətirməklə onu neytrallaşdırsın. Məhz Paşinyanın idarəetmədə təcrübəsi olmadığı üçün, Moskva onu öz təsirinə bununla salacaq. Hakimiyyətdə ciddi fikir ayrılığının da olması şübhəsizdir. Bəzi vəzifəlilər inqilabda verilən vədlərin yerinə yetirilmədiyini qeyd edərək sistemdən uzaqlaşır və görürlər ki, bu idarəetmə ilə uzağa getmək olmaz. İstənilən halda, bütün bunlar Paşinyanın uğursuz idarəçiliyinin göstəricisidir. Paşinyan nə qədər çalışsa da, məsuliyyətdən kənarda qala bilməyəcək".

*"Rusiya Təhlükəsizlik Şurasının katibi Patruşevin İrəvana səfəri fonunda iki müşavirin işdən çıxarılması təsadüfi deyil"*

***Vidadi ORDAHALLI***

**Bu gün dünya miqyasında böyük həyəcanla izlənilən məsələlərdən biri yeni qlobal maliyyə böhranının baş verə biləcəyinə dair edilən xəbərdarlıqlarla bağlıdır. Özü də böhranın yenə ABŞ-dan başlayacağı istisnalıq təşkil etmir. Belə bir vaxtda ABŞ və Çin arasında qızışan ticarət müharibəsi və bura yeni ölkələrin daxil edilməsi də vəziyyəti kəskinləşdirir.**




# Qaçılmaz dünya böhranının ikinci mərhələsində

# Azərbaycan ən hazırlıqlı ölkələr arasında...

Baş verənlər, Azərbaycan da daxil olmaqla, dünya ölkələri tərəfindən xüsusi diqqət mərkəzində saxlanır. Əksər ölkələr isə yeni böhrana hazırlıq baxımından qabaqlayıcı addımlar atır. Bura Azərbaycan da daxildir. Xatırladaq ki, 10 il əvvəlki qlobal iqtisadi-maliyyə böhranından minimum itki ilə çıxan ölkələrdən biri məhz Azərbaycan olub. Həmin vaxt ölkəmizin daxili potensiala əsaslanmaqla həyata keçirdiyi antiböhran tədbirləri dinamik inkişaf tempini qoruyub saxlamağa imkan verdi. Bir sıra yaxın və uzaq ölkələrdə iqtisadi tənəzzülün dərinləşməsinə, maliyyə böhranının kəskin xarakter almasına baxmayaraq, Azərbaycanda ümumi daxili məhsulun böyük artımı müşahidə olundu. Təbii ki, bu, ölkədə həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsində baş verdi. Bu mənada hesab edilir ki, yeni böhran baş verərsə, Azərbaycan buna ən hazırlıqlı ölkələrdən biri olacaq. Rusiyanın "RİA Novosti" portalının yazdıqlarından isə belə bəlli olur ki, yeni böhranın başlanması qaçılmazdır. Bunu "Moody`s" beynəlxalq kredit təşkilatının baş eksperti Mark Zandi də təsdiq edir. Ekspert vurğulayır ki, hazırda ABŞ iqtisadi durğunluğun astanasındadır. O bildirib ki, ABŞ prezidenti Donald Trampın Çinlə ticari savaşının ölkə iqtisadiyyatına zərər verməməsi ilə bağlı fikirləri yanlışdır: "Bu savaşın iqtisadi zərərlərinin olmadığı fikri olduqca yanlışdır. Tramp əlavə gömrük rüsumları ilə bağlı təhdidlərini icra edəcəyi təqdirdə ölkədə istehlakçılar və müəssisələr 100 milyard dollar əlavə xərc çəkəcək". Ekspert əlavə edib ki, sözügedən ticarət savaşı başladığından bəri dünya miqyasında sərmayə qoyuluşu durğunlaşıb. "RİA Novosti" bu fonda yazır: "On bir il əvvəl "Lehman Brothers" investisiya bankının çökməsi ilə çoxillik tənəzzülə səbəb olmuş qlobal maliyyə böhranı baş verdi. Bu hadisədən əvvəl isə ABŞ-da ipoteka böhranı hökm sürürdü. Lakin maliyyə böhranın təkrarlanma risqi yenidən ortaya çıxıb. Belə ki, amerikalıların ipoteka borcları yenə artıb, bu rəqəm hətta 2008-ci ilin üçün olan göstəricini keçərək rekord həddə çatıb. Sözügedən maliyyə böhranı 2007-ci ilin əvvəlində yüksək risqli ipoteka kreditlərinə təsir etməyə başladı. 2008-ci ildə isə böhranın ikinci dalğası standart ipoteka kreditləri seqmentini vurdu (bu seqmentdə banklar tərəfindən verilən borclar dövlət ipoteka korporasiyaları tərəfindən yenidən maliyyələşdirilir). Artıq 2008-ci ilin üçüncü rübünün əvvəlində ABŞ-da ipoteka borcu 9,294 trilyon dollara çatırdı.

Lakin hazırda amerikalıların ipoteka borcu hətta 2008-ci il üçün olan göstəricini keçir. Bunu Nyu-York şəhərinin Federal Ehtiyatlar Bankının təqdim etdiyi statistika da təsdiqləyir. Belə ki, bu ilin ikinci rübündə bu ipoteka borcu 162 milyard artaraq 9,4 trilyon dollara çatıb. Qeyd edək ki, daxili borcun (13,86 trilyon dollar) ən böyük hissəsi elə ipoteka borclarının payına düşür. Nyu-York Federal Ehtiyatlar Bankının iqtisadçıları iddia edirlər ki, amerikalıların ipoteka borcları ilə bağlı hazırkı vəziyyət 11 il əvvəl müşahidə olunmuş vəziyyətdən tamamilə fərqlənir. Hazırda kredit vermə şərtləri daha da sərtdir və kreditlərin qaytarılmasında yubanma hallarına daha az rast gəlinir. Federal Ehtiyatlar Bankının baş vitse-prezidenti Uilbert van der Klaauv qeyd edib: "Hazırkı ipoteka borcunun 2008-ci ilin üçüncü kvartalında müşahidə olunmuş maksimum həddi nominal olaraq aşmasına baxmayaraq, borclar üzrə ödəniş etməmə halları azalıb, borc götürənlərin kredit tarixçələri isə yaxşılaşıb". Lakin "JP Morgan Shase" bankının analitikləri hesab edirlər ki, ipoteka kreditləri bazarının strukturunda baş vermiş dəyişikliklər bir sıra risqlər yaradır. Belə ki, 2018-ci ildə bazarın 80 faizi qeyri-bank təşkilatları tərəfindən verilmiş ipoteka kreditlərinin payına düşüb (böhrandan əvvəl bu rəqəm 20 faizdən aşağı idi). Məsələ burasındadır ki, qeyri-bank kredit təşkilatları adətən kapitallaşma baxımından yüksək göstəriciyə malik olmurlar. Bundan başqa, qeyri-bank kredit təşkilatlarının biznesdən çıxması halında onların xidmətlərini göstərməyin kimin öhdəsinə düşdüyünü müəyyənləşdirən dəqiq bir mexanizm yoxdur.

Digər tərəfdən, dollar yeni böhranın yaranması üçün səbəblərdən biri ola bilər. "Bloomberg" agentliyinin analitikləri hesab edirlər ki, amerikan valyutasının məzənnəsinin sürətlə artması iqtisadiyyata ziyan vurur və yaxın gələcəkdə tənəzzülə səbəb ola bilər. Ekspertlər izah edirlər ki, qüvvətli dollar ABŞ-ın trilyonlar dəyərində borcları olan transmilli korporasiyalarının mənfəətini "yeyir". Belə şirkətlərə misal olaraq "Soca-Cola", "Caterpillar" və "Boeing" şirkətlərini göstərmək olar. ABŞ prezidenti Donald Tramp da dollarla bağlı narahatlığını bildirib: "Federal Ehtiyatlar Sisteminin digər ölkələrlə müqayisədə qoyduğu yüksək faiz dərəcəsi dollarımızı həddindən artıq yüksək səviyyədə saxlayır".

Lakin ekspertlərin fikrincə, Trampın dolları zəiflətmək cəhdləri uğursuzluqla nəticələnək.

Bundan başqa, "JP Morgan Chase" bankının hesablamalarına görə, qlobal böhran 2020-ci ildə baş verəcək. Buna səbəb kimi isə Amerika indekslərinin düşmə ehtimalı göstərilir". Bununla yanaşı hesab eidilir ki, ABŞ-a daha bir sərt zərbə də Çindən gələ bilər. Belə ki, Pekinlə Vaşinqton arasındakı ticarət müharibəsində Çinin hələ də əlində saxladığı əsas vasitə ABŞ-ın dövlət borcudur. Pekinin əlində 1,1 trilyon dollarlıq ABŞ istiqrazları var. Çin bu istiqrazları satsa, qiymətli kağızların dəyəri qəfildən düşəcək. Nəticədə ABŞ üçün dövlət borcu xidmətinin dəyəri gözlənilmədən artacaq. Bütün bunlar isə qlobal böhranın yaranmasına təkan verən əsas amillərdən sayılır.

Bu fonda əksər dövlətlər, o cümlədən Azərbaycan indidən preventiv tədbirlərə start verib. Hesab edilir ki, uğurla həyata keçirilən yeni inkişaf strategiyası nəticəsində Azərbaycan iqtisadiyyatı qlobal böhrana yenə yüksək dayanıqlılıq nümayiş etdirəcək Antiböhran siyasəti maliyyə sabitliyinin qorunmasına da yaxşı imkanlar yaradır və bunu manatla bağlı vəziyyətdən də aydın sezmək olar. Mütəxəssislərin fikrincə, Azərbaycanın istənilən böhrana qarşı siyasət proqramı konkret xarakter daşıyır. Elə bu səbəbdən yeni gözlənilən böhranın da təsirlərinin ölkəmizə yenə minimal səviyyədə olması proqnozlaşdırılır.

***Tahir TAĞIYEV***

# Amulsar mədəni Göyçə gölünü və Cermuk sularını zəhərləyən mənbə kimi - Paşinyanın xalqı aldatmaq planı...

**Ermənistanın cənubunda yerləşən Amulsar qızıl yatağının istismarı məsələsi ölkədə böyük narazılığa səbəb olsa da, belə görünür ki, ölkə rəhbərliyi bunda qərarlıdır. Yəni yatağın istismarı zamanı yaranacaq ekoloji fəsadları Ermənistan rəhbərliyi görmək istəmir.**



Ermənistanın İstintaq Komitəsinin sədri Hayk Qriqoryan hökumətin iclasında bəyan edib ki, guya yatağın istismarında problem yoxdur. Onun fikrincə, Amulsar qızıl filiz yatağının istismarı ilə bağlı beynəlxalq ekspertizanın rəyi üç vacib nəticəyə gəlməyə imkan verir: "Amulsarın quru suları ilə Cermuk termal bulaqları arasında əlaqə yoxdur. Amulsarın yeraltı suları ilə Sevan gölünün hövzəsi arasında əlaqə yoxdur. Ancaq zəlzələ vəziyyətində, müəyyən bir turşu drenaj konsentratının Sevan gölü hövzəsinə nüfuz etməsi risqi var, lakin bu konsentrasiyanın Sevan gölü hövzəsinin həcmində birləşməsi əhəmiyyətsiz olacaq. Ən başlıcası, Amulsar qrunt sularının Darb, Vorotan və Arpa çaylarına təsiri mümkündür. Lakin "Lidian" QSC ekspert qrupu tərəfindən təklif olunan 16 azaltma tədbiri görülsə, risqlər idarə edilə bilər".

## *Telman Zeynalov: "Amulsar qızıl yatağının istismarı yaxınlıqdakı ərazilərdə su hövzələrinə öz mənfi təsirini göstərəcək"*

Ancaq bütün bunlara baxmayaraq, yatağın istismarının ekologiyaya ciddi zərər vuracağı barədə əsaslı arqumentlər var. Ermənistan hakimiyyəti Amulsar yatağının ölkə xəzinəsinə milyonlarla dollar gəlir gətirəcəyini və dağ-mədən sənayesinin inkişafına töhfə verəcəyini desə də, ekoloqlar yaxınlıqda yerləşən çayların çirklənməsi və Cənubi Qafqazın ekoloji mirvarisi sayılan Sevan gölünün oksidləşməsi təhlükəsi ilə əlaqədar həyəcan təbili çalırlar. Təmiz qızıl ehtiyatına görə ölkənin ikinci yatağı olan Amulsar yatağı eyniadlı dağda, 3 min metr yüksəklikdə, Arpa və Vorotan çaylarının vadisində, kurort şəhəri olan Cermukdan 13 km aralıda yerləşir. Geoloqların fikrincə, yataqda təxminən 31 milyon ton qiymətli filiz və 40 ton təmiz qızıl var.

*"Nəticədə insanlar bir sıra xəstəliklərə düçar olurlar"*

Layihəni həyata keçirən şirkət əmin edir ki, bütün işlər beynəlxalq standartlara ciddi riayət edilməklə həyata keçiriləcək, bütün risqlər isə tam idarə olunandır, yəni operatorun nəzarəti altındadır. Lakin məsələ ilə bağlı geoloqlar, ekoloqlar və digər sahələrin mütəxəssisləri operator-şirkətin ilkin tədqiqatlarının çox detallarını gizlətdiyini, eləcə də qarşıdakı işlər zamanı irihəcmli ekoloji fəsadlar yaranacağını hesab edirlər. Ekoloqlar Amulsar yatağının istismara verilməsindən sonra yerli çaylar, su anbarı və Sevan gölünün çirklənməsi, Cermuk şəhərinin isə istirahət ərazidən mədənə çevriləcəyini deyirlər.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekoloq Telman Zeynalovun sözlərinə görə, Amulsar qızıl yatağının istismarı yaxınlıqdakı ərazilərdə su hövzələrinə öz mənfi təsirini göstərəcək: "Bunu şərtləndirən bir sıra amillər var. Nəzərə almaq lazımdır ki, Ermənistanın ərazisi kiçikdir. Bununla yanaşı, sözügedən qızıl yatağı Sevan gölünə və Cermuka məsafəcə yaxındır. Qızılın tərkibində civə var. Civə də ətraf mühitə düşdükdə hər yeri zəhərləyir. O suya düşəndə, bitkiyə keçəndə bu o deməkdir ki, canlı aləmə keçir. Nəticədə insanlar bir sıra xəstəliklərə düçar olurlar. Əsasən də xərçəng xəstəliyinə düçar olurlar. Ona görə də hesab edirəm ki, bunun ətraf mühitə və canlı orqanizmlərə mənfi təsiri olacaq".

***Vidadi ORDAHALLI***

# Mnatsakanyan Uruqvayda Qarabağ danışıqlarının dinamikasından danışdı, əslində, Paşinyan ələ salınır...

**Məlum olduğu kimi, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan Baş nazir Nikol Paşinyanın avqustun 5-də Xankəndidəki çıxışı zamanı səsləndirdiyi avantürist, təhrikedici bəyanatları dəstəkləyib. Mnatsakanyan uruqvaylı həmkarı Rudolf Nin Novoa ilə keçirdiyi brifinq zamanı Paşinyana haqq qazandırıb:**



"Ermənistanın Baş naziri Ermənistanın mövqeyini dəqiq formalaşdırıb. Stepanakertdə deyilənlərə nəsə əlavə etməyə ehtiyac yoxdur".

Qeyd edək ki, Paşinyan avqustun 5-də bunları demişdi: "Artsax (Dağlıq Qarabağa verilən qondarma ad) Ermənistanın ayrılmaz tərkib hissəsidir, nöqtə".

Bu cür pozucu ritorikanın fonunda Mnatsakanyan jurnalistlərə açıqlamasında həyasızcasına onu da deyib ki, Qarabağ münaqişəsinin nizamlanması ətrafında dinamika davam edir. Ancaq dövlət başçıları, yaxud xarici işlər nazirləri arasında yeni görüşün vaxtı hələ məlum deyil: "Sizdən xahiş etməliyəm ki, bir az səbr edəsiniz. Çünki mən prinsipial olaraq hesab edirəm ki, görüş haqda yeri və vaxtı həmsədrlər tərəfindən digər ölkə ilə razılaşdırılandan sonra elan etmək olar".

Maraqlıdır, Paşinyanın Xankəndidə Qarabağı Ermənistanın tərkib hissəsi elan edib məsələyə "nöqtə qoymasından" və Mnatsakanyanın da bu təxribatçı, qızışdırıcı yanaşmanı dəstəkləməsindən sonra Qarabağ danışıqlarında hansı dinamikadan söhbət gedə bilər?

## *Mübariz Əhmədoğlu: "Bu, Ermənistan rəhbərliyinin riyakarlığının göstəricisidir"*

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, bu, Ermənistan rəhbərliyinin riyakarlığının göstəricisidir: "Mnatsakanyan həmin görüşdə onu da qeyd etdi ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyi dəyişməyib. Yəni Paşinyanın Xankəndidə səsləndirdiyi həmin fikirlər, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyi dəyişməyib. Bu o deməkdir ki, Paşinyanın dedikləri heç nədir. Məlum məsələdir ki, Mnatsakanyan Paşinyanın naziri olduğuna görə birbaşa onun əleyhinə gedə bilməz. Ona görə də Paşinyanın səsləndirdiyi fikirləri təsdiqlədi. Ancaq Mnatsakanyan Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyini dəyişmədiyini deməklə, beynəlxalq qurumlara mesaj verir ki, Paşinyanın səsləndirdiyi fikirlər heç nəyi dəyişmir. Bir neçə dəfə bənzər hallar olub ki, Ermənistan rəsmiləri Paşinyanın hansısa sayıqlamalarını dolayı yolla təkzib ediblər. Artıq Mnatsakanyan bilir ki, Paşinyan istinad ediləsi mənbə deyil, sadəcə, Ermənistanın rəhbəridir. Hesab edirəm ki, Mnatsakanyan Paşinyandan bir az ağıllıdır. Çox güman ki, ATƏT-in Minsk Qrupu Mnatsakanyanın bu açıqlamasına görə Paşinyandan izahat tələb etmədi".

*"Ancaq Mnatsakanyan Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyini dəyişmədiyini deməklə..."*

***Vidadi ORDAHALLI***

**Yalan ayaq tutsa da, yerimməz deyirlər. Amma iki əsrdən artıqdır erməni yalanları və saxtakarlıqları nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada qol-qanad açır, günü-gündən genişlənir, əhatəsini böyüdür. Qədim xalqların mədəniyyətinin formalaşmasında sözsüz ki, epos yaradıcılığının önəmli rolu var.**

# Ermənilər Vəli Xuluflunu tutdurub "Koroğlu"nun əsasında saxta "Sasunlu David" dastanını necə quraşdırdılar?

***Məhərrəm Qasımlı:** "Artıq elmi cəhətdən sübut olunub ki, hayların qondarma "Sasunlu David" eposu "Koroğlu" dastanının motivləri əsasında quraşdırılıb"*

***İlhamə Qəsəbova:** "Hayların "Sasunlu David" dastanı "Koroğlu" dastanından plagiatdır, oğurluqdur"*

***Həsən Həsənov yazır:** "1930-cu illərdə erməni alimi Kanonyan professor Vəli Xulufludan iki dəfə xahiş edir ki, emənilər üçün də qəhrəmanlıq rəmzi "Koroğlu" dastanı yaradılmalıdır, Azərbaycanda hakimiyyət ermənilərdədir, bu dastanı yaratmaqda kömək elə, əks təqdirdə sizə xətər yetişər"*



Türklər başda olmaqla, tarixdə izi olan, tükənməz mədəniyyət xəzinəsi yaradan bütün qədim xalqlar bu gün də özünün tarixdəki mövqeyini qoruyur. Tarixə, dünya mədəniyyətinə yamaq olan ermənilər həm Avropa, həm də qədim türk xalqlarının, eyni zamanda da Cənubi Qafqazın digər köklü xalqlarının mədəniyyətini mənimsəyərək özlərinə "eposlar", "dastanlar" yaradıblar. Heç şübhəsiz ki, onlar bu işə əsasən XX əsrin əvvəllərindən başlayıblar. Ermənilərin epos oğurluğu haqqında faktlara toxunmamışdan əvvəl hayların necə erməniyə çevrilməsi haqqında bəzi tarixi dəlillərə toxunmaq istəyirik.

**Haylar necə erməniyə çevrildilər?**

Mənbələrdə qeyd edilir ki, bugünkü ermənilərin (hayların) öz içində əsl soy adları "hay" olduğu halda, gürcülər onlara somexi, kürdlər filə, biz də başqaları kimi erməni deyirik. Ancaq erməni etnonimi (boy-tayfa adı) ilk dönəmlərdə bugünkü haylara deyil, tamamilə başqa dilə və mədəniyyətə mənsub olan subar türklərinin ermən adlı boylarına aid olub. Haylar isə "Ermən" ölkəsinə gəldikdən xeyli sonra, xüsusilə xristianlığı qəbul edəndən sonra ətraf bölgələrə yayıldıqca, bu yeni adla "ermən" adlanmışlar. Çünki bəzi qonşu xalqlar onları artıq Ermən (Ərməniyyə) əhalisi erməni kimi tanımışlar. İndi isə hayların, yəni indiki ermənilərin necə türk boy adını götürüb ermən, armen və ya ərmən adlanmasını tarixi bəlgələrlə müşahidə edək. "Mitan dövləti dağılandan sonra burada yaranmış Subar bəyliyi e.ə. 673-cü ilə qədər müstəqilliyini qoruya bilsə də, həmin ildə asurlar tərəfindən dağıdıldı ("Azər xalqı", 2000, 129-134). Arme-Subar bölgələri iki asur canişinliyinə çevrildi. Asurların Fərat çayı yaxalarında əsir alıb, bu əyalətdə yerləşdirdiyi muşk tayfaları içində hay tayfalarının da olması mümkündür. Hayların Suriya ərazilərindən Subar bölgəsinə köçməsi haqqında hay tarixçisi M.Xorenatsi və hayların "Sasunlu David" eposu məlumat verir. Balkan yarımadasından Suriya torpaqlarına (e.ə. VII əsr), oradan isə sonralar Ermən ölkəsinə (e.ə. VI-IV əsrlər) gələn haylar (indiki ermənilərin əcdadları) həm antropoloji, həm də dil baxımından yerli ermənlərdən (ərmənlərdən) fərqlənirdilər. Burada hay tayfaları yaşadıqları bölgənin adına uyğun ermən, armen və ya ərmən kimi tarixə düşmüşlər. İndiki ermənilərin Hayastan adlandırdıqları dövlət isə I-IV əsrlərdə Anadoluda, V-XIX əsrlərdə Qafqazda lokal bölgələrdə yayılıb məskunlaşan hay koloniyaları anlamında işlənən qeyri-müəyyən coğrafi termindir. Qeyd etmək lazımdır ki, ərmən adının etnik anlamda deyil, siyasi-inzibati və coğrafi anlamda süni şəkildə genişlənməsi 1828-ci ildə olub. Həmin ilin martında rus çarı I Nikolayın imzaladığı fərmana əsasən, İrəvan və Naxçıvan xanlıqlarını birləşdirib "Armyanskaya oblast" (Erməni vilayəti) adlandırdılar" - deyə tarixi mənbələrdə vurğulanır.

**"1000 yaşlı" "Sasunlu David" eposu əslində necə quraşdırılıb?**

İndi də keçək əsas məsələyə, yəni ermənilərin epos oğurluğuna. Ermənilərin iddiasına görə, erməni xalqının qədim eposu 1000-dən (?) artıq yaşı olan "Sasunlu David"dir. Bəzi hay başlı sovet tarixçilərinin, erməni folklorşünas və alimlərinin düzüb-qoşduğu bu epos, əslində, XX əsrin 30-cu illərində "yaradılıb".

Onu da vurğulayaq ki, tarixi mənbələrdə 1939-cu ildə "erməni dastanı" "Sasunlu David"in 1000 illiyi SSRİ-də, o cümlədən də Azərbaycan SSR-də də keçirilib. Qeyd edək ki, qondarma "Sasunlu David" eposu ana dilimizə hay dilindən şair Böyükağa Qasımzadə tərəfindən tərcümə edilib.

Yeri gəlmişkən, "Sasunlu David" eposunun 1873-cü ildə Qaregin Srvandztyants tərəfindən yaradıldığı və eposdakı hadisələrin VII-X əsrləri əhatə etdiyi hay alimləri tərəfindən iddia edilsə də, tarixi faktlar, sənədlər, araşdırmalar tamam başqa bir fikri söyləməyə əsas verir.

Görkəmli folklorşünas-alim, professor Məhərrəm Qasımlı "Bakı-Xəbər"ə bildirdi ki, qondarma "Sasunlu David" dastanı "Koroğlu" dastanı əsasında yaradılıb. "Azərbaycanda qondarma "Sasunlu David" eposu ilə bağlı tədqiqatları əsasən mərhum alim, professor İsrafil Abbaslı aparıb. Onun bu sahədə çox maraqlı tədqiqatları var. Artıq elmi cəhətdən sübut olunub ki, hayların qondarma "Sasunlu David" eposu "Koroğlu" dastanının motivləri əsasında quraşdırılıb. Haylar plagiatlıq edərək özlərinə belə bir epos yaradıblar".

**"Koroğlu"dakı Qıratla "Sasunlu David"dəki Kurkik Cəlali eyni mənbədən - dənizdən yaranıblar"**

Filologiya elmləri üzrə fəlsəfə doktoru İlhamə Qəsəbovanın da qənaətinə görə, "Sasunlu David" oğurluqdur. O qeyd etdi ki, bəzi hay tədqiqatçıları bu oğurluğun izini itirmək üçün "Sasunlu David" dastanının VIII əsrə aid olduğunu bildirsələr də, bəzi erməni tədqiqatçıları tərəfindən qəbul edilməyib. "Çünki dastanın hansı əsrə aid olmasına sübutlar və faktlar yoxdur. Ermənilər dastanın tarixini düzgün desələr, onda onlar özləri boyunlarına almış olurlar ki, plagiyatçıdırlar. Ancaq hər iki dastanda baş verən hadisələr və surətlər eyni oxşarlığa malik olduğu üçün qərara gəlmək olur ki, hayların "Sasunlu David" dastanı "Koroğlu" dastanından plagiatdır, oğurluqdur. Məsələn, "Koroğlu"dakı Qıratla "Sasunlu David"dəki Kurkik Cəlali eyni mənbədən - dənizdən yaranıblar. Davidin qılıncı ilə Koroğlunun qılıncı da bir-birinə bənzəyir. Onlar ildırımdan əmələ gəlib. Davidin qılıncı dəniz dibindən götürüldüyünə baxmayaraq, onun da ildırım parçası kimi göydən düşdüyü söylənir. "Koroğlu" dastanında qəhrəmanların qüvvət mənbəyi torpaq və sudur. Bu, "Sasunlu David"də də elədir. Koroğlu Qoşa bulağın suyunu içib misilsiz güc əldə edir, "Sasunlu David"də də qəhrəmanlar həyatverici suyu içib qüvvətli olurlar. Hər iki dastanda sevgi macəraları də eynidir. Koroğlunun şücaət və mərdliyi xəbərini eşidəndən sonra ürəyi onu görmək arzusu ilə çırpınan xotkar qızı Nigar xanım əlinə ilk fursət düşən kimi - təsadüfən Bəlli Əhmədə rast gələrkən məktub yazıb onun vasitəsilə Koroğluya göndərir. Koroğlu məktubu alıb oxuyan kimi ona vurulur. Sonra o, İstanbula gedir, Nigarı qaçıraraq Çənlibelə gətirir. "Sasunlu David"də də Davidin qəhrəmanlığını eşidən Xandut xatın aşığı onun yanına göndərir.

Aşıq Davidin yanında Xandutun gözəlliyini mahnıda tərifləyir, onun qəlbini eşq alovları ilə doldurur, bundan sonra David gedib Xandutu tapır, nəhayət, onunla evlənir. Hər iki dastanda təsvir olunur ki, bu iki qadın ərlərinə sadiq həyat yoldaşı olurlar, onların mübarizəsinə rəvac verirlər..."

Folklorşünas qeyd etdi ki, ermənilərdə tarixən aşıq olmadığı üçün, burada aşığın adının çəkilməsi, eləcə də xanıma xatun deyilməsi də aşkar oğurluq nümunəsidir. Onu da bildirək ki, tarixi mənbələrdə "Sasunlu David"in erməni qanı daşımadığı da qeyd edilir. "Sasunlu David təmiz qanlı erməni deyildi" ifadəsi dediklərimizin sübutudur. Hətta alimlərimiz şifahi olaraq deyirlər ki, "Sasunlu David"in ermənilərə yox, gürcülərə daha çox aidiyyəti var. Çünki gürcülər də Azərbaycan türkləri kimi, Qafqazın aborigen sakinləridir, haylar isə bura 2 əsr bundan əvvəl köçürülüb.

Qeyd edək ki, ermənilər həm keçən əsrin əvvəllərində, həm də indi "Koroğlu" dastanına qarşı iddialar qaldırıblar. Guya ki, bu onlara aid eposdur. Yalnız onu vurğulayaq ki, Koroğlunun dəliləri arasında müxtəlif xalqların təmsilçiləri olsa da, ancaq hay, erməni olmayıb. Haylar bu torpağın sakinləri idilərsə, onda nə üçün Koroğlunun yanında yer almayıblar? Məsələn, Koroğlunun dəlilərindən biri gürcü oğlu idi, erməni oğlu deyildi. Hətta alimlər şifahi olaraq deyirlər ki, keçən əsrin 30-cu illərində "Koroğlu" eposunun qolları toplanarkən erməni siyasi ideoloqları görkəmli tədqiqatçı-alim, folklorumuzun cəfakeş toplayıcısı, repressiya qurbanı Vəli Xulufluya deyiblər ki, bizim üçün də "Koroğlu"ya bənzər epos yarat, lakin alim onların bu arzusunu gözlərində qoyduğu üçün, söhbətin üstündən iki-üç gün keçməmiş o, "xalq düşməni" kimi həbs edilərək repressiya qurbanı olub.

**K.Qostanyans "Bizim aşıqların erməni dilində şeirlə müşayiət olunan dastanları yoxdur, hamısı yalnız türk dilindədir" - deyə yazıb**

Sumqayıt Dövlət Universitetinin dosenti Həsən Həsənov özünün "Tarix erməni satqınlığı və saxtakarlığına dair faktlarla zəngindir" məqaləsində olduqca maraqlı faktlara toxunub. O bu yazıda Vəli Xuluflunun başına gələn müsibətə də toxunub. "1930-cu illərdə erməni alimi Kanonyan professor Vəli Xulufludan iki dəfə xahiş edir ki, sizdə "Koroğlu" dastanının bütün variantları və tarixi haqqında geniş məlumat var. Ermənilər üçün də qəhrəmanlıq rəmzi "Koroğlu" dastanı yaradılmalıdır, Azərbaycanda hakimiyyət ermənilərdədir, bu dastanı yaratmaqda kömək elə, əks təqdirdə sizə xətər yetişər". Erməni qorxaqlığını yaxşı bilən Vəli Xuluflu açıqca Kanonyana deyir ki, tarixçi-alim Veliçko kitabında (səh.67) yazır: "Təmiz qanlı ermənilər dovşandan da qorxurlar". Bundan əlavə, şair Aleksandr Sergeyeviç Puşkin qoca dağlının dilindən deyir: "Tı trus, tı rab, tı armenin". Belə qorxaq xalq Koroğlu yetişdirə bilərmi? Az da olsa milli qəhrəmanınız varsa, məsələn, Sasunlu Davud - o da təmiz qanlı erməni deyil. Vəli Xuluflu bu əhvalatı dostlarına çatdırır ki, Kanonyan mənə belə dedi. Bu hadisədən 4 gün sonra professor Xuluflu tutuldu və xalq düşməni elan edildi. Zəngin arxivini isə Dövlət Təhlükəsizliyi Komitəsinin işçiləri apardılar. Bundan sonra ermənilər zəif də olsa, "Koroğlu" dastanını yaratdılar.

1893-cü ildə erməni yazıçısı K.Qostanyans yazıb: "Bizim aşıqların erməni dilində şeirlə müşayiət olunan dastanları yoxdur, hamısı yalnız türk dilindədir. 1937-ci ildə Q.Tarıverdiyan yazır: "Erməni aşıqlarından topladığım şeirlərin xeyli hissəsi Azərbaycan dilində idi". Yazılanlardan görünür ki, ermənilər başqa xalqların mənəvi sərvətlərini oğurlayıb özlərinə dastan yaratmaq arzusunda olublar. XIX əsrdə yaşayan məşhur fransız tarixçi-alimi baron de-Bayı katolikosun paytaxtı Eçmiədzinə dəvət edirlər ki, burada ermənilərin yaratdığı çox qədim maddi mədəniyyət nümunələri var. De-Bay qızıl kasalara, taclara və toxuma materiallara baxıb açıqca deyib ki, bunlar XVIII əsr rokoko stilinə aid bəzək üslubudur, qədim mədəniyyət abidəsi deyil. Bundan sonra qədimliyi ilə öyünən və rusca çap olunan erməni qəzetləri nüfuzdan düşürlər. Ermənilər qədim gürcü daşlarının üzərindəki yazıları qoparıb yerinə erməni heroqlifləri yapışdırıb fransa tarixçisi Kutulini dəvət edirlər ki, burada qədim erməni maddi mədəniyyət abidələri var. Alim də daşların şəklini çəkib Fransada məqalə çap etdirir ki, ermənilər qədim mədəniyyətə, tarixə malik xalqdır. Məqalədən 6 ay sonra xəbər tutan gürcülər Kutulidən soruşurlar ki, sən bu faktları haradan götürmüsən? O da etiraf edir ki, onu aldadan, özünü gürcü kimi təqdim edən erməni "Mşak" qəzetinin redaktoru Arsrunidir" - deyə H.Həsənov yazır.

***İradə SARIYEVA***

# Gürcüstandan gələn "Mercedes"də sənədlərini və pulunu itirən Çin vətəndaşının da köməyinə polislər yetişdi...




**Avqustun 15-də Bakıya gələn Çin Xalq Respublikasının vətəndaşı Wei Yulinin üzləşdiyi çətinliyin həllində polis əməkdaşları ona yaxından köməklik göstərib.**

Belə ki, Çin vətəndaşı Nəsimi Rayon Polis İdarəsi 22-ci Polis Şöbəsinə müraciət edərək bildirib ki, Gürcüstandan Bakıya gəldiyi "Mersedes" markalı sərnişin mikroavtobusundan paytaxt ərazisində düşən zaman içərisində 2000 ABŞ dolları, 300 Yuan, 1000 Sinqapur dolları, 400 lari, 100 manat və bank kartları olan pul kisəsini həmin nəqliyyat vasitəsində unudub.

Polis Şöbəsində sənədləri və pulları itən həmin şəxsə lazımi köməklik göstərilib. DİN Növbətçi Hissələrin İdarəetmə Xidməti, Baş Dövlət Yol Polisi İdarəsi, Nəsimi RPİ və 22-ci Polis Şöbəsi əməkdaşlarınını qısa zamanda həyata keçirdikləri birgə tədbirlər nəticəsində həmin avtomobilin dövlət qeydiyyat nişanı müəyyən edilib və nəqliyyat vasitəsinin Goranboy rayonu ərazisindəki stasionar postda saxlanması təmin olunub. Nəqliyyat vasitəsinin sürücüsü, Gəncə şəhər sakini Dursun İsmayılov Gəncə Şəhər Baş Polis İdarəsinin Kəpəz Rayon Polis İdarəsinə gətirilib. O, Çin vətəndaşının itmiş əşyalarını polisə təqdim etdikdən sonra izahatı alınaraq buraxılıb.





Çin vətəndaşı Wei Yuli qısa zamanda ona belə böyük köməklik göstərdiyinə görə Azərbaycan polisinə təşəkkürünü bildirib.

Wei Yuli əlavə edib ki, Bakı haqqında həmişə gözəl sözlər eşidib və bir daha bunun şahidi olub. O, ölkəsinə qayıdandan sonra dostlarına Bakıda gördükləri və polislərin ona göstərdiyi köməklik barədə danışacağanı bildirib.

Qeyd edək ki, Wei Yuli iş adamıdır və Azərbaycana biznes qurmaq məqsədilə gəldiyini bildirib.

# Baş Prokurorluğun Mətbuat xidməti Qax və Qubada son günlərin iki intihar hadisəsini sensasiyaya çevirmək istəyənlərə ən dəqiq məlumatları verdi



**Avqustun 15-də Zaqatala şəhərində yaşamış 1980-ci il təvəllüdlü Feyzullayev Musa Feyzulla oğlunun Qax rayonunda valideynlərinin yaşadığı evin həyətində özünü asaraq intihar etməsi barədə rayon prokurorluğuna daxil olmuş məlumat əsasında rayon prokurorluğu və Polis Şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.**

Meyitin xarici müayinəsi zamanı boyun nahiyəsində stranqulyasiya şırımından başqa hər hansı xəsarət və ya xəsarət izi aşkar olunmayıb.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

İntiharın səbəblərinin araşdırılması məqsədilə iş üzrə mərhumun ailə üzvlərinin və digər şəxslərin ifadələri alınıb.

İlkin istintaq araşdırmaları ilə müəyyən edilib ki, 4 aya yaxın müddət ərzində Zaqatala rayon Məşğulluq Mərkəzinin müdiri işləmiş mərhum M.Feyzullayevin intihar etməsinə səbəb ailə-məişət zəminində və şəxsi problemləri olub. M.Feyzullayevin intahar etməsi xidməti fəaliyyəti ilə bağlı deyil.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

Eyni gündə Quba şəhərində yaşamış 1959-cu il təvəllüdlü Abbasov Canpolad Şıxmurad oğlunun yaşadığı evin həyətində yardımçı tikilidə özünü asaraq intihar etməsi barədə rayon prokurorluğuna daxil olmuş məlumat əsasında rayon prokurorluğu və Polis Şöbəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Meyitin xarici müayinəsi zamanı boyun nahiyəsində stranqulyasiya şırımından başqa hər hansı xəsarət və ya xəsarət izi aşkar olunmayıb.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

İntiharın səbəblərinin araşdırılması məqsədilə mərhumun ailə üzvlərinin, qonşuların və digər şəxslərin ifadələri alınıb.

Aparılmış araşdırmalarla müəyyən edilib ki, Canpolad Abbasov 2000-2002-ci illərdə Quba rayon İcra Hakimiyyəti başçısının müavini, 2006-2009-cu illərdə müxtəlif vəzifələrdə çalışıb, 2009-cu ildən isə təqaüdə çıxıb.

İlkin istintaqla sağlığında C.Abbasovla amansız rəftar edən, mütəmadi olaraq ləyaqətini alçaltmaqla hədə-qorxu gələrək özünü öldürmə həddinə çatdıran şəxsin olmadığı, eləcə də mərhumun hər hansı şəxsə borcu olmadığı müəyyən edilib. Mərhumun ailə üzvləri və qohumları ifadələrində C.Abbasovun intihar etməsinə səbəb kimi 2014-cü ildə oğlunun intihar etməsi ilə bağlı günahkar olmasını, özünə qapanmasını, hətta əvvəllər də bu səbəbə görə 2 dəfə intihara cəhd etməsini bildiriblər.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# Qusarda oteldən pulu taksi sürücüsü oğurlamışdı - bu iş də polis peşəkarların sayəsində açıldı...



**DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan verilən məlumata görə, Bakı şəhər sakini Adilxan Məmmədov Qusar RPŞ-nə müraciət edərək, Qusar rayonu ərazisində yerləşən otellərin birində istirahət edən zaman 1300 manat və 100 ABŞ dollar pulunun oğurlandığını bildirib.**

Polis əməkdaşları tərəfindən keçirilən uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində məlum olub ki, qeyd olunan cinayəti zərərçəkmişi istirahət mərkəzinə gətirən taksi sürücüsü, 30 yaşlı Fərid Məmmədov törədib. Həmin sürücü Qusar RPŞ-nin əməkdaşları tərəfindən Bakı şəhəri Mərdəkan qəsəbəsi ərazisində saxlanaraq polis şöbəsinə gətirilib. Dindirilmə zamanı F.Məmmədov törətdiyi cinayət əməlini etiraf edərək, zərərçəkənin pullarını oğurluq yolu ilə əldə etdiyini bildirib. Oğurladığı pulların 200 manatını xərcləsə də, 1100 manat və 100 ABŞ dolları maddi sübut kimi ondan götürülüb.

Faktlarla əlaqədar Qusar RPŞ-nin TB-də araşdırmalar aparılır.

**Ermənistan hakimiyyəti ilə Dağlıq Qarabağ separatçıları arasında fikir ayrılığının mövcudluğu heç kimə sirr deyil. Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağdakı qondarma hakimiyyətin başında dayananlarla münasibətlərini hələ də istədiyi səviyyədə tənzimləyə bilmir.**



# Erməni xalqı Paşinyanı addım-addım deşifrə edir

## - "2050-yə hesablanmış vədlər nağıldır"



Bundan əlavə, məlumdur ki, Nikol Paşinyan "Qarabağ klanı"nı Ermənistanda bütün vəzifələrdən uzaqlaşdırıb, bir qismi həbs olunub. İndi Paşinyanın əsas niyyəti separatçı rejimin də başına ona sadiq olacaq şəxsin gəlişini təmin etməkdir. Amma real vəziyyət bunun Paşinyan üçün çox çətin olduğunu üzə çıxarır. Eyni zamanda görünən həm də budur ki, Paşinyan və onun tərəfdarları Ermənistan və Qarabağ erməniləri arasında uçurumu daha da dərinləşdirir.

Paşinyanın Qarabağa səfərləri də nəticə vermir. Əksinə, belə bəlli olur ki, bu səfərlər onunla separatçılar arasında fikir ayrılıqlarını daha da artırır. Hətta bəzi məqamlar baxımından Paşinyana daha sərt reaksiya göstərilir. Məsələn, Qarabağ ermənisi Artur Ağacanovun rəhbərlik etdiyi "Alban Avtokefal Kilsəsinin və türk-xristianlarının irsinin bərpası üzrə hərəkat"ının bəyanatında Paşinyanın bir neçə gün əvvəl Xankəndidə səsləndirdiyi fikirlərə etiraz edilir. Bildirilir ki, həmin vaxt Paşinyanın Qarabağın Ermənistana aid olduğunu iddia etməsi və bu yöndə fikirlər səsləndirməsi yolverilməzdir. Qeyd olunur ki, Nikol Paşinyan sələfi Serj Sarkisyanın səhvlərini təkrar etməməli və bütün qarabağlıların adından danışmamalıdır. Bəyanatda o da qeyd olunub ki, 30 ildən sonra Xankəndidə meydanda keçirilən mitinqdə yenidən "miatsum" çağırışı səslənib ki, bu da yolverilməzdir və Qarabağ münaqişəsində yeni gərginliyin yaranmasına aparır. Sənədi "Alban Avtokefal Kilsəsinin və türk-xristianlarının irsinin bərpası üzrə hərəkat"ının fəalları imzalayıb.

Erməni politoloq Qaqik Ambaryanın fikrincə, bu gedişlə Qarabağ erməniləri ilə Paşinyan arasında ziddiyyətlərin daha da böyüməsini gözləmək olar. Onun sözlərinə görə, 2020-ci ildə Dağlıq Qarabağda keçiriləcək "prezident seçkisi" fonunda tərəflər arasında ziddiyyətlərin daha da dərinləşməsini gözləmək olar: "Paşinyan düşünürdü ki, Qarabağda Bako Saakyan üzərində nəzarəti gücləndirəcək. Bu alınmadı. Bako Saakyan Robert Köçəryan və Serj Sarkisyanın təsiri altındadır və onlara xidmət edir. Belə vəziyyətdə onlar Qarabağda idarəçiliyi Paşinyana verməyi düşünmürlər. Bu da ziddiyyətlərin artmasına səbəb olur". Ekspert qeyd edir ki, bu vəziyyətdə Ermənistan daxilində artan problemlər də "Qarabağ klanı"nın lehinə işləyir: "Ölkədə vəziyyət gərginləşir, etiraz aksiyalarının sayı artır. Baş nazir problemləri həll etməkdə acizlik nümayiş etdirir. Ermənistan rəhbəri olaraq, Paşinyan respublikanı biabır edir. Ermənistanın uğursuzluğa uğramış ölkə hesab olunması çox pisdir. Paşinyan Ermənistan rəhbəri olaraq tayfabazlığı, komandasının çarəsizliyini izah etmək üçün ölkəni biabır edir". Ermənistanda "İslahatçılar" partiyasının sədri Vahan Badasyan isə belə vəziyyətdə "Qarabağ klanı"nın fəallaşması ilə mümkün hakimiyyət dəyişikliklərini istisna etmir. Onun sözlərinə görə, 2018-ci ildə baş verən hadisələrdən ruhlanan bir çox insanlar bir neçə ay sonra həyatlarında sıçrayış tipli dəyişikliklərin olacağını düşünürdü: "Lakin il yarım keçib, görürlər ki, ölkədə hər hansı irəliləyiş yoxdur. Yoxdur, ona görə ki, yalanlar, manipulyasiyalar və nağıllarla dolu xeyli hal var. Əsl həyatda insanları narahat edən problemlərin həlli yoxdur. İnsanlar danışırlar ki, Nikol olmasın, bəs kim olsun, xalq kimin arxasınca lider deyə getsin? Bu sual Ermənistanın siyasət meydanında havada qalan məsələdir". O qeyd edib ki, indiki məqamda Ermənistanda hakimiyyət dəyişikliyi ehtimalı yüksəkdir: "Birdən hər hansı qüvvə Azadlıq meydanında 20 min insan toplayarsa, bugünkü hakimiyyət qoşun yeridəcək. Hər hansı siyasi proseslərin irəliləməsini qəbul etməyəcəklərinə əminəm. Lakin şəhərimizdə 50 mindən artıq insan ayağa qalxsa, yarım saat sonra Paşinyanın yenidən müxalifət xadiminə çevriləcəyinə əminəm. Bizim ictimaiyyətin böyük bir qismi həyat şəraitlərini yaxşılaşdıracaq lideri, növbəti rəhbərin kim olacağını görməsə də, insanlar vəziyyətin doğrudan da dəyişmədiyini hiss etsələr, hakimiyyəti dəyişəcəklər. Paşinyanın verilən vədlərə əməl etmədiyinə dair xalq qərar verdiyi anda onun hakimiyyətdən getməsini istəsələr, hakimiyyəti tərk edəcəyinə dair Paşinyanın siyasi vədləri xatırlanmalıdır. İndi xalq arasında narazılıqlar var və narazılıqlar pərakəndə yox, vahid bir siyasi meydanda real siyasi konsepsiyalarla birləşməli, vahid siyasi platformaya çevrilərək, hakimiyyətdə olan gücə qarşı gələcək alternativ qüvvə fomalaşdırmalıdır. Xankəndidə səslənən 2050-ci il üzrə nağıl vədləri nə deməkdir? Onlar vədlərinin heç 10%-ni də yerinə yetirmədikləri halda 2050-ci il haqqında danışırlarsa, əziz millət, bu artıq bizi ələ salmaqdır. Mən çox təəssüf edirəm ki, hələ də bizim 2050-ci ildə əmək haqqlarının 7 dəfə artırılacağına sevinən, alqışlayan və fəxr edən insanlarımız var. Paşinyan 5 il müddətinə seçilib. O, 5 il çərçivəsinə sığan bütün vədlərini yerinə yetirməyə borcludur. Bundan sonra hakimiyyətdə qalma və ya qalmama barədə iddia edə bilər". Erməni partiya sədri vurğulayıb ki, bu durumda "Qarabağ klanı"nın təmsilçilərinin aktivləşməsi Paşinyanın mövqelərini zəiflədə bilər və buna görə baş nazir onlara qarşı aqressiv davranır. Bu durumda vurğulanır ki, "Qarabağ klanı" ilə Paşinyan arasında baş verənlər Ermənistanı bir çox istiqamətlərdə iflic vəziyyətə salır. İndilikdə isə Nikol Paşinyan Dağlıq Qarabağ separatçılarının Ermənistandakı tərəfdarları vasitəsilə İrəvanda çevriliş cəhdindən ehtiyat edir.Xatırladaq ki, Dağlıq Qarabağ separatçıları bir dəfə Ermənistanda çevriliş ediblər, 1997-ci ildə prezident Levon Ter-Petrosyanı hakimiyyətdən uzaqlaşdırıblar. Ona görə "Qarabağ klanı"nın çevriliş etmək təcrübəsi var və bu, Paşinyan tərəfindən də nəzərə alınır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Patruşevin səfəri barədə Ermənistan hökumətinin məlumatı - Paşinyanın Qarabağ siyasətini ifşa edən fakt...

**Ermənistan rəsmilərinin son açıqlamaları İrəvanın Dağlıq Qarabağ münaqişəsini hələ də sülh yolu ilə həll etmək niyyətində olmadığını göstərir. Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın baş nazir Nikol Paşinyanın Xankəndidəki son çıxışı zamanı səsləndirdiyi avantürist, təhrikedici bəyanatları dəstəkləməsi də bunun növbəti təsdiqi sayılır.**

Xatırladaq ki, Mnatsakanyan İrəvanda uruqvaylı həmkarı Rudolf Nin Novoa ilə keçirdiyi brifinq zamanı Paşinyanın Xankəndidəki çıxışına əlavə şərh vermək lazım olmadığını bildirib: "Baş nazir hər şeyi dedi. Deyilənlərə nəsə əlavə etməyə, yenidən oxumağa ehtiyac yoxdur". Qeyd edək ki, Paşinyan avqustun 5-də Xankəndidə demişdi ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz tərkib hissəsidir. Bunun növbəti dəfə Mnatsakanyan tərəfindən səsləndirilməsi, yuxarıda qeyd olunduğu kimi, İrəvanın Qarabağ məsələsini sülh yolu ilə həll etməkdə maraqlı olmadığını aydın nümayiş etdirir. Halbuki, bunun indiki vəziyyətdə Ermənistanın özü üçün böyük zərbə olduğunu İrəvanda da etiraf edənlərin sayı kifayət qədərdir. Hakimiyyət nümayəndələrinin belə bəyanatlarının ilk növbədə Ermənistanın maraqlarına və xarici siyasət strategiyasına zərbə vurması barədə məqamları erməni siyasətçilər də açıq şəkildə bəyan edirlər. Onlar bildirir ki, Paşinyanın məsələyə bu səpkidə yanaşması Azərbaycanın münaqişəni güc yolu ilə həll etmək üçün arqumentlərini və əsaslarını daha da gücləndirəcək. Belə ki, İrəvanın bu mövqeyi çox açıq şəkildə danışıqlar prosesinin məhz kim tərəfindən sabotaj edildiyini göstərir. Ehtiyatda olan polkovnik, hərbçi ekspert Şair Ramaldanov da bu fonda yeni Qarabağ savaşını istisna etmir. Onun sözlərinə görə, sülh yolu ilə münaqişənin həll variantı tükənərsə, Azərbaycan üçün başqa yol qalmır: "Azərbaycan hərb yolu ilə, antiterror əməliyyatları keçirərək öz ərazi bütövlüyünü bərpa etmək gücündədir. Ermənistan Azərbaycana başqa yol qoymur. Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri nəticə verən addımlar atmasa, Ermənistan da tutduğu işğalçılıq siyasətindən əl çəkməsə, bunun sonu güc yolu olacaq. Bu da Azərbaycanın beynəlxalq hüquq normaları çərçivəsində haqqıdır". Ekspert diqqətə çatdırıb ki, Azərbaycanın işğal altındakı ərazilərində yerləşdirilən qüvvələr qanunsuz hərbi birləşmələrdir: "Bu isə elə terrorçu birləşmələr deməkdir. Bütün beynəlxalq təşkilatlar buna qarşı mübarizə aparmalıdır və hamısını tərksilah etməlidir. Azərbaycanın öz torpaqlarını güc yolu ilə azad etməsi üçün tam hüquqi əsası var".

Məsələnin maraqlı tərəfi budur ki, proseslərin belə şəkildə inkişaf edə biləcəyini indiki Ermənistan rəhbərliyi də anlayır. Onlar həmçinin bilir ki, Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyəcək. Bu vaxta qədər Ermənistan əsas etibarı ilə Rusiyanın fəaliyyəti nəticəsində yeni savaşın olmayacağına ümid edirdisə, "1-in.am" saytı yazır ki, artıq bu ümidlərin üzərindən də xətt çəkilib. Çünki Ermənistanın yeni hakimiyyətinin bütün cəhdlərinə baxmayaraq, Moskva onu qəbul etmir, əvəzində Kremlin Azərbaycan və Türkiyə ilə münasibətləri dinamik inkişaf edir. Sayt Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin Ermənistana son səfəri fonunda bunun bir daha öz təsdiqini tapdığını qeyd edir: "Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev bu günlərdə İrəvanda olub, erməni həmkarı ilə, bir gün sonra isə baş nazir Nikol Paşinyanla görüşlər keçirib. Bu səfər bir neçə yöndə diqqətçəkəndir. Birincisi, Rusiya elitasında böyük çəkisi olan Patruşev məxməri inqilabdan sonra Ermənistana ilk dəfə gəlir, həm də aydındır ki, onun missiyası, belə deyək, kəşfiyyat-hazırlıq missiyasıdır. Məsələ burasındadır ki, oktyabrda İrəvanda Avrasiya İqtisadi Birliyinin sammiti nəzərdə tutulub, ən maraq doğuran məsələ Vladimir Putinin Ermənistana səfəridir. Rusiya prezidenti inqilabdan sonra Ermənistana gəlməyib: bu haqda bir neçə dəfə bildirilsə də, dərc edilmiş tarixlər azdan, ya da çoxdan əsaslandırılan izahatlarsız təxirə salınıb. Görünür, Putin bu dəfə İrəvana gəlməkdən yayına bilməz, xüsusən də bu şəraitdə: İrəvan Avrasiyanın baş tədbirini qəbul edən paytaxtdır. O biri yandan, İrəvanda planlaşdırılmış sammitin təxirə salındığı örnəyimiz var. Əlbəttə, bu, 2016-cı il aprel savaşından dərhal sonra baş verib, lakin heç bir zəmanət yoxdur ki, Moskva növbəti "fors-majorlu" arqumentləşdirmə düşünməyəcək. Bu biri yandan, Patruşevin səfəri iki ölkə üçün önəmli bir mərhələdə - Ermənistan və Rusiyada mühüm daxili-siyasi transformasiyalar baş verəndə baş tutur. Ermənistanda inqilabsonrası institutlaşma köhnə sistemin tərs müqaviməti ilə üzləşir. Buna, habelə bölgəsəl məsələləri, xüsusən də hərbi sahədə Rüsiya-Türkiyə işbirliyinin dərinləşdiyini də əlavə edək, bu, Ermənistan üçün müəyyən risqlər doğurur. Bəlkə də, Ermənistan-Rusiya münasibətlərində dərin böhran yoxdur, ancaq institutlaşmış harmoniya da yoxdur və nə qədər paradoksal olsa da, yüksək səviyyədə təmaslar problemlərin həllinə şərait yaratmır, o qədər də əlverişli olmayan status-kvonu möhkəmləndirir.Təsadüfi deyil ki, rəsmi İrəvan və Moskva Paşinyan-Patruşev görüşü haqda müxtəlif vurğulu məlumatlar yayıb. Rusiya Təhlükəsizlik Şurası mətbuat xidmətinin məlumatında deyilir: "Rusiya Təhlükəsizlik Şurası katibi Nikolay Patruşev və Ermənistan baş naziri Nikol Paşinyan İrəvan görüşündə təhlükəsizlik sahəsində Rusiya-Ermənistan işbirliyini möhkəmləndirmək, habelə Suriya xalqına humanitar yardım göstərmək və Suriyada dinc yaşayışı bərpa etmək məsələlərini müzakirə ediblər.

Moskvada vurğunu Suriya probleminə ediblər, bunun nəticəsində İrəvanın Qərblə, xüsusən ABŞ-la aşkar problemləri var. Karnegi Fondunun "Rusiya və Avrasiya" proqramının elmi işçisi Pol Stronski Ermənistana münasibətdə Amerika siyasətindən, Dağlıq Qarabağa verilən yardımın azaldılması imkanından danışarkən, səbəb kimi, Ermənistanın Suriyaya humanitar missiya üçün qrup göndərməsini göstərib. Aydındır ki, Ermənistan kontingenti Moskvanın çağırışı, ya da basqısı ilə Suriyaya göndərilib, Paşinyan bu addımla da Vladimir Putinin inamını möhkəmləndirməyə çalışıb. Bu, açıqca alınmayıb, əvəzində İrəvan və Qərb tərəfdaşları arasında gərginlik meydana çıxıb. İndi təəssürat biçimlənir ki, Moskva Ermənistanın xarici siyasət manevri imkanlarını daraltmaq məqsədilə Suriya mövzusunu məqsədyönlü şəkildə kəskinləşdirir.

Rusiyanın məlumatında heç bir xatırlatma yoxdur ki, Paşinyan və Patruşev Dağlıq Qarabağ problemini müzakirə ediblər, halbuki, Ermənistan hökumətinin aparatı xəbər verir: "Ermənistanın baş naziri və Rusiya Təhlükəsizlik Şurasının katibi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesi, bölgədə hərbi balansı saxlamaq və sabitliyi təmin etmək, bölgəsəl və beynəlxalq təhlükəsizliyin inkişafı və çağırışları haqda fikir mübadiləsi aparıblar". Ehtimal ki, Ermənistanın baş naziri irəli gedən Rusiya-Azərbaycan və Rusiya-Türkiyə hərbi işbirliyi ilə bağlı məsələ qaldıraraq bölgəsəl təhlükəsizlik və Qarabağ problemi kontekstində narahatlıq ifadə edib. Gördüyümüz kimi, tərəflərin hətta rəsmi məlumatları da Ermənistan-Rusiya münasibətlərində var olan problemlərin üstünü açır. İrəvan və Moskva arasında əsəb müharibəsi gedir. Məhz bu durumda Rusiyanın Qarabağ münaqişəsində Ermənistana dəstək verməsi artıq inandırıcı görünmür". Təbii ki, bütün bu qeyd edilənlər Qarabağ məsələsində Azərbaycanın mövqelərinin daha da güclənməsi anlamına gəlir. Bunu erməni politoloq Ruben Gevondyan da təsdiq edir. Onun sözlərinə görə, İrəvan xaricdən olan dəstəyi itirdiyi bir vaxtda Ermənistan baş nazirinin Xankəndidə səsləndirdiyi bəyanatlar ölkə üçün müharibə təhdidini daha da artırır: "Artıq Bakı bəyan edib ki, Paşinyanın bəyanatları üzunmüddətli danışıqlara ziddiyyət təşkil edir. Əlbəttə, Xankəndidə verilən bəyanat, məhz Paşinyanın özü tərəfindən Qarabağın danışıqlar masasında iştirakına dair verdiyi bəyanatla ziddiyyət təşkil edir. Bakının reaksiyası gözlənilən idi, təbii ki, Paşinyanın dediklərini Bakı qəbul edə bilməzdi. Minsk Qrupunun həmsədrlərinə gəldikdə isə, hesab edirəm ki, yaxınlarda münasibət bildiriləcək. Bu münasibət sonrakı proseslərdən asılı olacaq".

Erməni politoloq qeyd edib ki, bu proses Ermənistanın "Qarabağ Ermənistandır, vəssalam" açıqlamasına nə izahatı verəcəyindən çox asılıdır: "Yeni hər şey Ermənistanın bəyanatlarından asılı olacaq. Hesab edirəm ki, istənilən halda, İrəvanın açıqlamasından asılı olmayaraq, Bakı mövcud ritorikasını davam etdirəcək. Əlbəttə, Ermənistanın Paşinyanın bəyanatını izah edəcək seçim müxtəlifliyi çoxdur. Minsk Qrupunun həmsədrlərindən isə münasibəti hələ də gözləyirik. Qarabağa dair görüşlərdə ictimaiyyətə məlum olmayacaq formatda sərt danışıqlar ola bilər. Lakin düşünmürəm ki, bu, danışıqlar otağından kənara çıxa bilsin. Əlbəttə, Qarabağdakı rejimin danışıqlar masasına qayıtması haqqında da Paşinyanın bəyanatı Minsk Qrupunun xoşuna gəlməyib. Ona görə ki, belə olan halda Minsk Qrupu son 20-25 il ərzində həyata keçirdiyi fəaliyyətinin bütün məntiqinə yenidən baxmalı idi. Burada da belə bir inkişaf prosesi mümkündür. Burada mənfi tərəflərdən biri baş verənlərin bütün həmsədr ölkələrdə mənfi qarşılanmasıdır. Bakı bunlardan uğurla istifadə edir və Ermənistanın mövqelərini zəiflədir".

Hesab edilir ki, yaranmış vəziyyətdə Bakının ərazi bütövlüyü məsələsini güc yolu ilə Ermənistan özü əlavə arqumentlər qazandırır. Məsələnin ən əsas tərəflərindən biri də budur ki, Qarabağ münaqişəsi yenidən qaynar mərhələyə keçəcəyi təqdirdə Ermənistanı Azərbaycan qarşısında heç kim müdafiə etməyəcək. Elə bu da Azərbaycanın mühüm uğurlarından biri sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Sələmçilərin qanunsuz fəaliyyətinin fəsadları getdikcə çoxalır...



**Əli İsaoğlu:** *"Sələmçiliklə məşğul olan şəxslər vergidən yayındığı üçün İnzibati Xətalar və Cinayət məcəllələrinin müvafiq maddələri üzrə məsuliyyətə cəlb oluna bilər"*

**Natiq Cəfərli:** *"Sələmin vergiyə cəlb olunması ancaq o halda mümkün ola bilər ki, proses notarial qaydada rəsmiləşdirilsin"*

**İslam dinində haram sayılan sələmçiliyə Azərbaycanda hələ də rast gəlinməkdədir. Daha çox gizli fəaliyyət göstərən və faizlə pul verən müəyyən şəxslərin əlində bu gün böyük həcmdə pul cəmləşib. Aydın məsələdir ki, sələmlə başqasına pul verən bunun nəticəsində əldə etdiyi faizlər hesabına gəlir götürür.**

Amma, nədənsə, sələm verən fərdlər əldə etdikləri qazanclara görə dövlətə heç bir vergi ödəmirlər. Halbuki, gəlir götürməyə görə vergi də ödənilməlidir.

Məlumatlara görə, Azərbaycanda sələmçilərin öz aralarında da alış-veriş edirlər. O da bəllidir ki, bu gün sələmlə bağlı məhkəmələrə ünvanlanan müraciətlərin sayı yüzlərlədir. Bir sıra hallarda sələm verən verdiyi pulu geri ala bilmədiyinə görə, digər hallarda isə aldığı həmin borca görə vəziyyətini yaxşılaşdırmaq əvəzinə, daha da müflisləşən sələm götürənlər məhkəməyə müraciət edirlər. Lakin aydın məsələdir ki, sələmçilik prosesi heç bir sənəd olmadan qanunsuz həyata keçirildiyindən, bu işin məhkəmə müstəvisində həlli yoxdur. Sələmə pul alıb-vermə prosesi notarial qaydada təsdiqlənmədiyi halda, məhkəmə iddianı qəbul etmir. Qeyd edək ki, fərdi şəxslərin kreditlə pul verməsini təkcə din deyil, qanun da qadağan edir. Fərdi şəxslərin kreditlə məşğul olması qanunvericilikdə öz əksini tapmayıb. Banklar, bank olmayan təşkilatlar və kredit ittifaqları faizlə pul verə bilirlər. Bu qurumlara Mərkəzi Bank tərəfindən nəzarət olunur. Fərdi şəxslərin Mərkəzi Bankdan qeydiyyatdan keçib kredit alqı-satqısı ilə məşğul olmaları isə mümkün deyil. Sələmçilərin borc verib pul qazanmalarına baxmayaraq, onların vergi ödəmələri problemi uzun zamandır davam edir. Görəsən, məsələ necə həllini tapmalıdır, necə etmək olar ki, sələmçilər də vergiyə cəlb olunsunlar?

Hüquqşünas Əli İsaoğlu "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, fiziki şəxslərin sələmçiliklə məşğul olması qanunla qadağandır: "Bəllidir ki, sələmçiliklə məşğul olanlar yaxşı gəlir əldə edirlər. Buna baxmayaraq, onlar vergi verməkdən yayınırlar. Külli miqdarda gəlir əldə edən şəxs isə vergidən yayındığı üçün İnzibati Xətalar və Cinayət məcəllələrinin müvafiq maddələri üzrə məsuliyyətə cəlb oluna bilər. Bununla yanaşı, faizlə pul verən şəxs, ilk növbədə, vətəndaşın hüququnu kobud şəkildə pozur. Gələcəkdə onun heç bir təminatı olmur. Digər tərəfdən isə dövləti aldadır.

Məlumdur ki, vətəndaşlara sələmə pul verilməsi qanunsuzdur. Müqavilə əsasında olmadığı halda, vətəndaşın bir başqasına faiz qarşılığında, yəni sələmə pul verməsi qanunsuzdur. Düzdür, bu məqamlar çox vaxt tərəflər arasında əvvəlcədən şifahi şəkildə qarşılıqlı formada müəyyən edilir. Müəyyən məbləğə uyğun olaraq müvafiq faizlər təyin edilir. Danılmaz faktdır ki, sələmə verilən məbləğ daha çox olur və faiz tələbi də bəzən yüksək olur. Müəyyən bir məbləğin birbaşa faizə verilməsi sələm hesab olunur. Vətəndaşların isə faizə pul verib, müqavilə bağlamaq səlahiyyətləri olmadığı üçün, bu, qanunsuz hesab edilir".

Müstəqil iqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, sələmçiliyin vergiyə cəlb olunması prosesin notarial qaydada rəsmiləşdirilməsi halında mümkündür: "Sələmçilərin vergiyə cəlb edilməsi mexanizmini işləyib hazırlamaq çox çətindir. Çünki sələm verib almaq iki fiziki şəxs arasında olan münasibətlərdir. Həmin münasibətlərin də vergiyə cəlb edilməsi problemli görünür. Bu əsasda da onun tənzimlənməsi çətin məsələdir. Prosesin hər hansı bir formada qeydiyyata alınması, yaxud da vergiyə cəlb olunması həmin şəxslərin marağına bağlı məsələdir. Yəni borcverən və alan həmin prosesi rəsmiləşdirməyə meylli olmalıdırlar ki, qeydiyyata düşsün və belədə vergiyə cəlb olunma da mümkün olsun. Sələmin vergiyə cəlb olunması ancaq o halda mümkün ola bilər ki, proses notarial qaydada rəsmiləşdirilsin və rəsmi müqavilələr şəklində olsun. Məhz o zaman əldə olunan gəlirdən fiziki şəxsdən tutulan gəlir vergisinin şkalasına uyğun olaraq vergiyə cəlb etmək mümkün olardı. Amma çox təəssüf ki, Azərbaycanda əksər hallarda borc münasibətləri, demək olar ki, ya şifahi, ya da yazılı razılaşma əsasında iki şəxsin öz arasında olur, heç bir qeydiyyat aparılmır. Ona görə də sələmçiliyin vergiyə cəlb olunması indiki zamanda müşkül məsələdir. Borc müqavilələrinin rəsmiləşdirilməsi qaydaları təsdiqlənsə, bu istiqamətdə hər hansı bir addım atılsa, bu halda prosesin vergilə bağlı məsələsini də tənzimləmək olar. Sələmçiliyə görə vergi ödəmədiyi halda onu verənə qarşı ciddi cərimələr tətbiq olunsa, həmin cərimələrlə üzləşməmək üçün insanlarda vergi ödəməyə şəxsi maraq yaransa, bu işdə müəyyən irəliləyişlərin ola biləcəyini gözləmək olar. Amma belə bir münasibətlərin formalaşması bir qədər çətin və xeyli müddət zaman alan məsələdir.

Bununla belə, ən azından, sələm verən vətəndaşları məlumatlandırmaq lazımdır ki, rəsmi şəkildə müqavilələrin bağlanması onların özlərinə xeyirdir. Çünki sonradan problem yaşanarsa və borcun geri qaytarılması mümkün olmazsa, rəsmiləşdirildiyi halda, borcverən hüquqi zəmindən istifadə etməklə həmin pulu geri ala bilər. Müqavilə olmadan isə həmin pulun geri qaytarılması da problemli görünür".

***Günel CƏLİLOVA***

# Bakının 6 rayonunda köhnə binaların sökülməsi paytaxtın görkəmini necə dəyişəcək...

**Məlumdur ki, Bakının 6 rayonunda kəskin qəzalı binalarla bağlı yekun qərar verilib. Belə ki, kəskin qəzalı binalar sökülləcək. Paytaxtın Binəqədi rayonunda 2 bina, Yasamal rayonunda 1 bina, Səbail rayonunda 1 bina, Sabunçu rayonunda 7 bina, Suraxanı rayonunda 4 bina, Xətai rayonunda isə 1 bina kəskin qəzalı olduğu səbəbindən sökülləcək.**



***İlqar Hüseynli:** "Qəzalı vəziyyətdə olan binaların sökülüb yerində keyfiyyətli binaların inşa olunması ölkənin sosial siyasətinin tərkib hissəsidir"*

Həmin binalarda bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması mümkün olmadığından, sakinlərin köçürülməsi həyata keçiriləcək.

Bəllidir ki, əhalinin sosial vəziyyətinin yaxşılaşması istiqamətində dövlət tərəfindən mühüm işlər görülür. Elə ölkə başçısı İlham Əliyev əhalinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq qurumlara mütəmadi olaraq tapşırıqlar verir.

Məlumdur ki, Prezident İlham Əliyev hələ bu ilin əvvəlində bəyan etmişdi ki, qarşıdakı dövrdə sosial inkişafla bağlı mühüm islahatlar keçiriləcək. Bundan sonra həqiqətən də dövlət başçısının təşəbbüsü ilə iki böyük sosial islahat paketi qəbul olundu. Həmin sosial islahat paketinə daxil olan məsələlərdən biri də mənzil şəraitinin yaxşılaşdırılmasıdır. Elə bu minvalla, qəzalı vəziyyətdə olan yaşayış binaları aşkar olunaraq, sakinlərin rahatlığının təmin olunması üçün yeni, müasir standartlara cavab verən binalar inşa olunacaq.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, son zamanlar ölkə rəhbərliyi tərəfindən görülən işlərin əsas məqsədi əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bu istiqamətdə çoxlu sayda iş görülür. Görülən işlərdən biri də mənzil şəraiti yararsız vəziyyətdə olan binaların yenisi ilə əvəz olunmasıdır: "Məlumdur ki, bu gün Bakının 6 rayonunda qəzalı vəziyyətdə olan binaların siyahısı tərtib olunub.

*"Sevindirici haldır ki, artıq adıçəkilən binaların sökülməsi ilə bağlı qərar qəbul olunub"*

Qəzalı vəziyyətdə olan binaların sakinləri həmin binalarda yaşamaqdan qorxurlar. Çünki istifadəyə yararsız olan binada hər an xoşagəlməz hadisə baş verə bilər. O insanların rahat və güvənli şəraitdə yaşamaları üçün həmin binalar sökülməlidir. Sevindirici haldır ki, artıq adıçəkilən binaların sökülməsi ilə bağlı qərar qəbul olunub. Qaydalara uyğun olaraq, bina sakinləri yeni və təhlükəsiz binalara köçürüləcək. Beləliklə, sakinlər rahat və güvənli şəraitdə yeni mənzillərində yaşayacaqlar".

Həmsöhbətimiz onu da vurğuladı ki, qəzalı vəziyyətdə olan binaların sökülüb yerində keyfiyyətli binaların inşa olunması ölkənin sosial siyasətinin tərkib hissəsidir.

***Günel CƏLİLOVA***

# Muzeylərin Turizm Agentliyinə verilməsi ilə nə dəyişəcək...

**Azərbaycanda fəaliyyət göstərən muzey, mədəniyyət evləri və rəsm qalereyalarının tam yeni qaydada xidmət göstərməsi məsələsi aktuallaşıb. Nəzərə alsaq ki, sözügedən mədəniyyət ocaqlarının əksəriyyətində xidmət səviyyəsi çox aşağıdır, ona görə də onların tamamilə müasir standartlar əsasında fəaliyyətlərini davam etdirməsi vacibdir.**



*"Həmin obyektlərdə ümumən yenidənqurma aparılacaq və burada turistlər üçün yeni turizm məhsulları yaradılacaq"*

***Kənan Quluzadə:** "İlk növbədə məqsədimiz tarixi-mədəni irsi qorumaq, eyni zamanda, dövlət xərclərini optimallaşdırmaq..."*

Məlum olduğu kimi, bzi muzeylər Mədəniyyət Nazirliyinin tabeliyindən çıxarılaraq Turizm Agentliyinə verilib. Belə ki, Nazirlər Kabineti "Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"na dəyişiklik edib. Baş nazir Novruz Məmmədovun imzaladığı qərara əsasən, Lahıc Tarix-Diyarşünaslıq Muzeyi, Şəki Tarix-Diyarşünaslıq Muzeyi, Şəki Xalq Tətbiqi Sənəti Muzeyi, Şəki Dövlət Rəsm Qalereyası, Basqal qəsəbə Mədəniyyət Evi, Xınalıq kənd Mədəniyyət Evi Dövlət Turizm Agentliyinin strukturuna daxil edilib.

Qeyd edək ki, adları qeyd edilən mədəniyyət ocaqları buna qədər Mədəniyyət Nazirliyinin balansında olub.

Muzey və digər mədəniyyət ocaqlarının Turizm Agentliyinin balansına verilməsi nə ilə bağlıdır? Bu yenilik nələrin dəyişməsinə səbəb olacaq?

Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə "Bakı-Xəbər"ə bildirdi ki, agentliyin tabeliyinə verilən qurumlar agentliyin tabeliyində olan qoruqlarda fəaliyyət göstərən mədəniyyət ocaqlarıdır. "Həmin o muzeylər, mədəniyyət evləri, rəsm qalereyası Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqların ərazisində yerləşir. Bizim qoruqlarla bağlı yeni konsepsiyamız var və konsepsiyaya əsasən, qoruqlarda yenidənqurma işləri aparırıq, bununla da qoruqları turistlər üçün daha cəlbedici edirik. Bu konsepsiyanın tam olaraq bütün qoruqların ərazisində olan qurumları - muzeyləri, mədəniyyət evlərini və s. əhatə etməsi üçün onlar Turizm Agentliyinin tabeliyinə keçib. İlk növbədə məqsədimiz tarixi-mədəni irsi qorumaq, eyni zamanda da dövlət xərclərini optimallaşdırmaq, dövlət tərəfindən verilən maliyyənin həcmini azaltmaq, həmin obyektlərdə yeni konsepsiyaya uyğun yenidənqurma işləri aparmaq və onları turistlər üçün daha da cəlbedici etməkdir. Məqsəd, həm-

*"Məqsəd, həmçinin, həmin obyektlərin özünümaliyyələşdirmə sisteminə keçirilməsidir"*

çinin, həmin obyektlərin özünümaliyyələşdirmə sisteminə keçirilməsidir. Məsələn, həmin obyektlərdə ümumən yenidənqurma aparılacaq və burada turistlər üçün yeni turizm məhsulları yaradılacaq. Dövlət Turizm Agentliyinin tabeliyinə verilən muzeylərdə sərgilər, turistlər üçün ödənişli təlimlər və s. keçiriləcək. Məsələn, Xınalıqda həmin mədəniyyət obyektində turistlər yerli əhali ilə bərabər xalça toxuyacaq, yaxud Şəkidə, Basqalda kəlağayının hazırlanmasında iştirak edəcəklər".

K.Quluzadənin sözlərinə görə, bu muzey və digər obyektlərdə turistlər üçün yeni ödənişli xidmətlər göstəriləcək.

Bundan əldə edilən gəlir hesabına isə həmin obyektlərin ilk vaxtlarda özlərini müəyyən dərəcədə maliyyələşdirəcəyini deyən K.Quluzadənin bildirdiyinə görə, bu da dövlət büdcəsinə düşən yükün azaldılmasına xidmət edəcək. "Bu, eyni zamanda, həm tarixi-mədəni irsimizin qorunmasını, həm mədəniyyətimizin təbliğini, həm də yerli əhalinin iqtisadi aktivliyini təmin edəcək" - deyə K.Quluzadə qeyd etdi.

***İradə SARIYEVA***

# Universitetlərimizin yataqxanaları xaricilərin xidmətində, öz tələbələrimiz kirayə qapılarda...

**Yeni dərs ilinin başlamasına bir aydan az vaxt qalıb. Bu səbəbdən də tələbələrin əksəriyyəti kirayə ev axtarışındadır. Vəziyyətdən istifadə edən kirayə ev sahibləri isə mənzilin aylıq ödəniş qiymətini qaldırırlar. Nəzərə almaq lazımdır ki, tələbələrin böyük faizi ödənişli təhsil alır. İllik ödənişlə yanaşı, ayda azı 200 manat kirayə ödəmək tələbə ailəsi üçün çox ciddi problemdir.**

Universitet yataqxanalarında boş yer olmadığı üçün, çarəsiz qalan tələbələr kirayə mənzildə qalırlar.

Ümumiyyətlə, hər dərs ili başlayanda tələbələrin yataqxana problemi yenidən gündəmə gəlir. İllərdir bu problem öz həllini tapmır.

Xatırladaq ki, Sovet dövründə tələbələrin, demək olar ki, böyük əksəriyyəti yataqxanalarda qalırdı. Ancaq son illər yataqxana məsələsi tələbələr üçün ciddi problemə çevrilib. Universitet yataqxanalarında əsasən xarici tələbələr qalırlar. Yerli tələbələr isə kirayə mənzildə qalaraq təhsillərini davam etdirirlər. Onu da qeyd edək ki, son zamanlar kirayə mənzil bazarında qiymət artımı qeydə alınıb. Statistik rəqəmlərə əsasən, bu il kirayə mənzillərin qiyməti ötən ilə nisbətən 4 faiz artıb. Ucuz mənzillərdə qiymət artımı ötən ilə nisbətən 7,6 faiz təşkil edib.

Məlumat üçün bildirək ki, Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin əksəriyyətinin yataqxanası var. Belə ki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində 320 nəfərlik yataqxana var. Yataqxanada əsasən əcnəbi tələbələr qalır və onlar buna görə ödəniş edirlər. Azərbaycan Texniki Universitetinin 5 korpuslu yataqxanasından yalnız biri tələbələrin ixtiyarına verilib və həmin yataqxana 80 yerlikdir. Azərbaycan Tibb Universitetinin 6 yataqxanası var. Onlardan 5-də tələbələr qalır. Yataqxanaların ümumi tələbə tutumu 1256 nəfərdir. Məlumat üçün bildirək ki, ATU-nun yataqxanası ödənişlidir. Hazırda ödəniş haqqı aylıq 50 manatdır. Azərbaycan Dillər Universitetində 200 tələbənin qalması üçün iki yataqxana var. Aylıq ödəniş 20 manatdır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin 5 yataqxanasının birində tələbə qalır. Həmin yataqxana 200 yerlikdir. Bakı Slavyan Universitetinin 3 saylı qızlar yataqxanası tələbələrin ixtiyarındadır. Yataqxananın 2-4-cü mərtəbələri tamamilə tələbələrə məxsusdur. Bakı Ali Neft Məktəbinin 400 çarpayılıq tələbə evi var.

Bəllidir ki, universitet yataqxanaları kirayə mənzilə nisbətən ucuz olur. O da məlumdur ki, əcnəbi tələbələr maddi vəziyyət baxımından əziyyət çəkmirlər. Olmazmı ki, tələbə yataqxanalarında yerli tələbələr, kirayə mənzillərdə isə əcnəbilər qalsın? Belə olarsa, həm yerli vətəndaşlar büdcəsinə qənaət etmiş olar, eyni zamanda, mənzilini kirayə verənlər daha çox qazanc əldə edərlər.

Təhsil eksperti Nadir İsrafilov bildirdi ki, kirayə qalan tələbələrə güzəşt etmək lazımdır: "Azərbaycan və dünya universitetlərindəki tələbələrin yaşayış standartlarını da müqayisə edəndə, bizdə bu sahədə vəziyyətin fərqli olduğunu müşahidə etmək olar. Ən aparıcı dünya universitetləri kampus şəraitindədirlər. Tələbələrin yataqxana problemi yoxdur və məişət problemlərindən uzaqdırlar. Azərbaycanda isə tələbə kirayə haqqı ödəməli, müəyyən vəsaitlərə pul xərcləməlidir. Bu istiqamətdə bir çıxış yolu da odur ki, tələbə yataqxanaları istifadəyə verilsin və tələbələr kirayə haqqından azad olsunlar. Bu sahədə də problemlər var. Ayrı-ayrı universitetlərin yataqxanalarına məcburi köçkün ailələri yerləşdirilib. Bununla yanaşı, universitet yataqxanalarında yerli tələbələr yox, xaricilər qalırlar".

Ekspert hesab edir ki, bu sahədə yaşanan problemi həll etmək üçün Bakı şəhərinin mərkəzində böyük tələbə yataqxanası onların ixtiyarına verilməlidir: "Nəzərə almaq lazımdır ki, təhsil təkcə dövlət işi deyil, həm də ümumxalq işidir. Bəllidir ki, universitetlər və iş adamları təhsil haqqını ödəməkdə tələbələrə köməklik göstərirlər. Yaxşı olar ki, bizim iş adamları və sahibkarlar da bu sahəyə öz dəstəklərini göstərsinlər".

N.İsrafilovun sözlərinə görə, bu gün universitet yataqxanalarında daha çox əcnəbi tələbələr qalırlar. Yaxşı olar ki, əcnəbi tələbə ilə yerli tələbə arasında fərq qoyulsun. Yerli tələbələrə üstünlük verilsin.

Əmlak bazarı üzrə mütəxəssis Nüsrət İbrahimli bildirdi ki, adətən, avqust ayının sonu, sentyabr ayının ortalarına qədər kirayə mənzil bazarında bahalaşma olur: "Oktyabr ayında qiymətlər əvvəlki məcrasına qayıdır. Lakin metro yaxınlığında və ya universitetlərin yaxınlığında yerləşən evlərdə qiymətlərdə azalma müşahidə olunmur. Tələbələr üçün nisbətən ucuz mənzillər şəhərdən kənarda olsa da, burada yolpulu və zaman itkisi yenidən tələbəni oxuduğu təhsil müəssisəsinin yaxınlığında ev tutmağa məcbur edir".



***Nadir İsrafilov:** "Yaxşı olar ki, universitet yataqxanalarında yalnız əcnəbi tələbələr deyil, həmçinin, yerli tələbələr də yerlə təmin olunsunlar"*

***Nüsrət İbrahimli:** "...burada yolpulu və zaman itkisi yenidən tələbəni oxuduğu təhsil müəssisəsinin yaxınlığında ev tutmağa məcbur edir"*

**Günel CƏLİLOVA**

# Gürcüstan istehsallı ərzaq məhsullarında təhlükəli maddə - Məsələyə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi də reaksiya verdi

**İnsanların sağlamlıq üçün təhlükəsiz qidalardan istifadəsi əsas şərtdir. Lakin bir çox hallarda biz sağlamlığımız üçün böyük təhlükə mənbəyi olan qidalardan istifadə edirik. O qidaların qablaşdırılması çox zaman cəlbedici olduğu üçün, onların orqanizmimiz üçün zərərsiz olduğunu düşünürük.**

Bu gün Azərbaycan bazarında xarici ölkələrdən idxal edilən kifayət qədər çeşidli qida məhsulu var ki, biz onlardan istifadə edirik. Amma xarici ölkələrdə istehsal edilən qida məhsullarının heç də hamısı yüksək keyfiyyətdən xəbər vermir.

Mətbuatın yazdığına görə, Gürcüstanda istehsal olunan bəzi qida məhsullarında təhlükəli boyaq maddəsi aşkar olunub. "Report"un Gürcüstan bürosunun məlumatına görə, qadağan olunmuş boyaq maddələrinin aşkar olunduğu tomat sousu və ədviyyatların yerli mağazalarda satıldığı müəyyən edilib.

Araşdırmanı həyata keçirən Gürcüstanın Strateji Araşdırma və İnkişaf Mərkəzi istehlakçıları altı konkret məhsuldan imtina etməyə çağırıb. Belə ki, həmin qida məhsulları insan sağlamlığı üçün təhlükəlidir.

Yoxlama zamanı Gürcüstanın "Marneuli" və "Kula" kimi tanınmış istehsalçılarının qırmızı tkemali (məşhur gürcü sousu) məhsulunda "Sudan I" boyaq maddəsi aşkar olunub. Araşdırmanın nəticələri elan olunandan sonra "Marneuli" şirkəti qırmızı tkemalinin istehsalını dayandırdığını bildirib.

Gürcüstanın Milli Qida Agentliyi, öz növbəsində, aparılan araşdırmanın nəticələrini təsdiq və ya təkzib etmək üçün əlavə laborator yoxlamalar keçirəcəyini bildirib. Qadağan olunmuş sintezləşdirilmiş boyaq maddəsinin müəyyən edilməsi məqsədilə nümunələr Latviyanın "Biori" laboratoriyasına göndəriləcək.

Qeyd edək ki, "Sudan" qrupuna daxil olan qeyri-qida boyaq maddələri dizel yanacağının istehsalı, parçaların və ya laboratoriyalarda preparatların boyanması üçün istifadə olunur. Bu maddələr ədviyyatların və ya məhsulların saxtalaşdırılması üçün tez-tez tətbiq olunur.

Məlumdur ki, bu gün Azərbaycan bazarında da kifayət qədər Gürcüstan məhsulu var və bu məhsullar arasında tomat sousu, acika, tkemali, ədviyyatlar, şirin içkilər, sosiska və kolbasa da var. Azərbaycan istehlakçılarının Gürcüstan istehsalı olan məhsullara üstünlük verməsi də sirr deyil.

Gürcüstanda istehsal edilən və insan sağlamlığı üçün zərərli olan bu məhsullar, heç şübhəsiz, Azərbaycan bazarında da satışa çıxarılır. Bu məhsullarla bağlı nə kimi tədbirlər görülməlidir?

Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov bizimlə söhbətində bildirdi ki, insan sağlamlığı üçün zərərli olan məhsulların bazara çıxarılmasının özü düzgün deyil. O qeyd etdi ki, əgər Gürcüstandan idxal edilən bu məhsulların tərkibində zərərli maddələr varsa, əlaqədar qurumlar buna qarşı tədbir görməlidirlər. "Mən o məhsullarla tanış deyiləm, amma o məhsullarda insan sağlamlığı üçün hər hansı bir təhlükəli maddə aşkarlanıbsa, həmin məhsullarla bağlı əlaqədar qurumlar araşdırma aparmalıdırlar. Əvvəla aidiyyəti təşkilatlar tərəfindən o məhsulların Azərbaycan bazarında satılıb-satılmadığı müəyyən edilməli, sonra isə ona qarşı tədbirlər görülməlidir. Mən özüm, ümumiyyətlə, Gürcüstan istehsalı olan məhsullardan istifadə etmirəm, yerli və təbii məhsullara üstünlük verirəm" - deyə T.Əmiraslanov vurğuladı.

Tanınmış həkim Rafis Bağırovun fikrincə isə, ümumiyyətlə, həmin məhsullar Azərbaycan bazarından yığışdırılmalı və ölkə gömrüyündən keçirilməsinə qadağa qoyulmalıdır. "İnsanların qida təhlükəsizliyinin təmin edilməsi əsas məsələdir. Əgər hansısa ölkənin istehsal edib başqa ölkələrə idxal etdiyi məhsullarda insan sağlamlığına zərər vuran maddələr varsa və bunu həmin dövlətin özü etiraf edirsə, biz də ona qarşı mübarizə aparmalıyıq. Gürcüstanın əlaqədar qurumları bəzi şirkətlərin istehsal etdiyi məhsulların tərkibində insan sağlamlığı üçün zərərli boyaq maddələri olduğunu etiraf edirsə, deməli, o dövlət bu hala qarşı mübarizə aparmaqda maraqlıdır. Azərbaycanda həm Gömrük Komitəsi, həm də Qida Təhlükəsizliyi Agentliyi bu məhsullarla bağlı tədbir həyata keçirməlidir. Azərbaycanda bu çeşidlərdə olan məhsullar satılırsa, yığışdırılmalı, eyni zamanda da həmin məhsullar gömrükdən buraxılmamalıdır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları da Gürcüstanda olarkən bu məhsulları almamalıdırlar" - deyə R.Bağırov bildirdi.



***Tahir Əmiraslanov:** "Aidiyyəti təşkilatlar tərəfindən o məhsulların Azərbaycan bazarında satılıb-satılmadığı müəyyən edilməli, sonra isə ona qarşı tədbirlər görülməlidir"*

***Rafis Bağırov:** "Azərbaycanda bu çeşidlərdə olan məhsullar satılırsa, yığışdırılmalı, eyni zamanda da həmin məhsullar gömrükdən buraxılmamalıdır"*

***Qida Təhlükəsizliyi Agentliyi:** "Ölkəmizə Gürcüstandan həmin məhsullar idxal edilmir"*

Faktla bağlı Qida Təhlükəsizliyi Agentliyi ilə də əlaqə saxladıq. Qəzetimizin sorğusuna cavab olaraq agentlikdən bildirdilər ki, adıçəkilən məhsullar Azərbaycana idxal olunmur: "Sorğunuza cavab olaraq bildiririk ki, ölkəmizə Gürcüstandan həmin məhsullar idxal edilmir. Ümumiyyətlə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qida zəncirinin bütün mərhələlərində dövlət nəzarəti və tənzimləməni həyata keçirir. Agentlik tərəfindən ölkədə istehsal olunan və ölkəyə idxal olunan qida məhsulları üzərində risq əsaslı nəzarət tədbirləri həyata keçirilir.

Məhsullar gömrük ərazisinə daxil olunduqdan sonra daşıdığı risq səviyyəsinə uyğun olaraq ekspertizadan keçirilir. Ölkəyə idxal edilən məhsullardan agentliyin müfəttişləri tərəfindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında müayinə edilir. Ekspertizanın nəticələri uyğun olduqda sahibkarlar məhsulları yerli bazarda sərbəst ticarət dövriyyəsinə daxil edə bilirlər".

***İradə SARIYEVA***

**Sosial şəbəkə sahəsində yeni olan Tik-tok platforması gerçək bir kabusa çevrilərək uşaqlarımızın mənəvi dünyasını dağıtmaqla məşğuldur. Bu gün təkcə başqa ölkələrdə deyil, Azərbaycanda da Tik-tok-dan istifadə edən, bura öz foto və videolarını yükləyən uşaqların sayı günü-gündən artır.**

# 16 yaşadək uşaqlarınızı yeni bəladan qoruyun - Tik-tok




## *Aydın Xan Əbilov: "Uşaqların şəkil, kiçik video paylaşdıqları platformalarda müəyyən xəstə təfəkkürlü insanlar var ki, onlar uşaqlara qarşı şantaj əməlləri həyata keçirir"*

16 yaşa qədər olan uşaqlarımızın böyük əksəriyyəti İstagram-dan, Facebook-dan üz döndərərək kütləvi olaraq Tik-toka axın edirlər.

Burada uşaqların öz sərbəstliyini təmin etmək üçün hər cür imkan var, amma bu heç də uşaqlarımızın xeyrinə deyil. Statistikaya görə, bu sosial şəbəkə o qədər təhlükəlidir ki, hətta bu bəzi uşaqların intihar etməsinə, evdən qaçmasına səbəb olur. Sirr deyil ki, bu platformadan istifadə edən uşaqların böyük əksəriyyətinin vaxtını səmərəli keçirməsi üçün valideynlər heç bir şərait yaratmır. Gününü saatlarla Tik-tok kimi şəbəkələrdə keçirən uşaqlar ondan o qədər asılı olurlar ki, heç çölə belə çıxmaq istəmirlər. Bu gün Tik-tokdan xilas olmaq üçün yollar aranmalıdır ki, uşaqlarımızı onun caynağından necə xilas edə bilərik.

Yeni Yazarlar və Sənətçilər Qurumunun rəhbəri, yazıçı-kultroloq Aydın Xan Əbilov baki-xeber.com-a bildirdi ki, ümumiyyətlə, internetdə, sosial şəbəkədə insanların özlərini ifadə etməsi təbiidir. "Bilirsiz ki, yalnız yaşlı və orta nəsil deyil, gənclər, uşaqlar da sosial şəbəkələrdən istifadə edirlər. Uşaqlar və gənclər müasir texnologiyaları çox yaxşı mənimsəyirlər. Nəinki məktəb yaşlı uşaqlar, hətta bağça uşaqları belə, yeni texnologiyaları bilir. Bəzi ölkələr uşaqların marağını nəzərə alaraq müxtəlif uşaq sosial şəbəkələri yaratdılar. Onlardan biri də Tik-tok-dur. İstənilən yenilik həm də müəyyən təhlükələrlə müşayiət olunur. Bu təhlükə sosial şəbəkələrin yarandığı ilkin dövrlərdə daha çox idi. Bu gün sosial şəbəkə istifadəçiləri müəyyən problemlərlə üzləşirlər. Xüsusən də, uşaqların şəkil, kiçik video paylaşdıqları platformalarda müəyyən xəstə təfəkkürlü insanlar var ki, onlar uşaqlara qarşı şantaj əməlləri həyata keçirirlər. Onlar arasında uşaq pornoqrafiyası ilə maraqlananların olması da istisna deyil. Bu kimi sosial şəbəkələrdə uşaqların videolarından, şəkillərindən sui-istifadə halları ola bilər. Amma bunun da qarşısını yeni proqramlar, təhlükəsizlik sayğacları, süzgəcləri və antivirus proqramları ilə almaq mümkündür. İstənilən halda uşaqlara təcavüzlə, onlara qarşı müxtəlif zorakılıqla bağlı saysız saytlar var və get-gedə müxtəlif ölkələrdə o saytlara giriş qadağan edilir, o saytları yaradanlara qarşı cinayət işi qaldırılır. Azərbaycanda da sosial şəbəkə ilə bağlı hüquq-mühafizə orqanları, QHT-lər və başqa qurumlar ayıq-sayıq olmalıdır ki, o şəbəkələrdən uşaqlarımıza zərər gəlməsin".

**Azərbaycanda Tik-tok kimi sosial şəbəkələrin, platformaların monitorinqini keçirən şuralar yaradılmalı olduğunu deyən A.X.Əbilov hesab edir ki, bu vasitələrlə uşaqlarımızı o şəbəkələrin mənfi təsirindən xilas edə bilərik. "Dəfələrlə təklif etmişik ki, Azərbaycanda internetin və Azərbaycandilli internet resurslarının təkmilləşdirilməsi üçün xüsusi dövlət proqramı qəbul edilməli və internet şurası yaradılmalıdır" - deyə müsahibimiz qeyd etdi.**

*İradə SARIYEVA*

# "Azercell"in Rəqəmsal Dünyası Cocuq Mərcanlıda




**Ölkənin telekommunikasiya sahəsinin lideri "Azercell Telekom" MMC avqust ayının 15-də Cocuq Mərcanlıya səfər edib. Sosialyönümlü layihələrin dəstəkçisi və təşəbbüskarı olan şirkət Cəbrayıl rayonu, Novruz Aslanov adına Cocuq Mərcanlı kəndi tam orta məktəbinin şagird və müəllimləri ilə görüşüb, onları məktəb ləvazimatları və digər hədiyyələrlə mükafatlandırıb.**

Tədbir zamanı orta məktəbin direktoru Zamin Həziyev "Azercell"in bu təşəbbüsünü yüksək qiymətləndirdiyini vurğulayıb. "Azercell"in "Mobil Göz" və "Mobil Diş" klinikaları da səfərə qoşulub. Klinikalar 60-dan çox Cocuq Mərcanlı sakinini müayinədən keçiriblər. Fəaliyyətləri boyunca "Azercell"in klinikaları on minlərlə valideyn himayəsindən məhrum olmuş uşaqlara, aztəminatlı ailələrə, yaşlılara və məcburi köçkünlərə tibbi yardım göstəriblər.

Qeyd edək ki, Cocuq Mərcanlı düşmən işğalından azad olunduqdan sonra "Azercell" bu ərazidə stansiya quran ilk operator olub. Cari ilin yanvar ayında bura səfər edən "Azercell" kənd sakinlərinə nömrələr və digər dəyərli hədiyyələr təqdim edib.

Yeni bağlantı erasında istifadəçilərin artan tələblərini qarşılamaq üçün "Azercell" 2018-2019-cu illərdə ölkə boyu 4G şəbəkəsini gücləndirib və genişləndirib. Bu müddət ərzində ölkənin 60-a yaxın rayon və şəhərində 1007 yeni LTE stansiyası qurulub, ümumi stansiyaların sayı 7000-i ötüb. "Azercell" son yarım ildə ölkədə telekommunikasiya sahəsinin inkişafına 63 milyon manatdan artıq vəsait yatırıb. Bunun sayəsində şirkət əhali əhatəsi dairəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% yüksəlişə nail olub. Həmçinin, günlük LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək artım qeydə alınıb.

Şirkət analoji səfərlərini avqust ayı ərzində davam etdirəcək.

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**

# "Nar"ın sürətli 4G şəbəkəsi artıq Qobustan və Xızıda!




**Ölkə əhalisini yüksək keyfiyyətli 4G şəbəkəsi ilə təmin edən "Nar 4G texnologiyalı baza stansiyalarının sayını artırmaqda davam edir.**

Mobil operatorun quraşdırdığı LTE baza stansiyaları sayəsində artıq Qobustan və Xızı sakinləri də 4G şəbəkəsi ilə təmin olunub. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq 55-ə yaxın rayon 4G baza stansiyası ilə təmin edilib. Belə ki, "Nar" son 3 ayda 600-dən çox 4G texnologiyalı, 40-a yaxın isə 3G texnologiyalı baza stansiyası quraşdırıb. Bununla da "Nar"ın 4G baza stansiyalarının sayı 2300-ü, 3G baza stansiyalarının sayı isə 2700-ü ötüb.

"Nar" 4G şəbəkəsini Bakı və Abşeron yarımadası ərazisi ilə yanaşı, regionlarda, şəhər və rayon mərkəzlərində də artırır. "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Qeyd edək ki, mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür. Hazırda ölkə əhalisinin 97.6%, ölkə ərazisinin isə 83,6%-i (işğal olunmuş ərazilər istisna olmaqla) "Nar"ın sürətli internetindən yararlana bilir. Mobil operator 8100-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçini yüksək sürətli internetlə təmin edir.

Qeyd edək ki, mobil operator ölkə boyu yeni baza stansiyaları quraşdırmaqla yanaşı, əvvəl quraşdırdığı baza stansiyalarını daim yeniləyir. Bundan başqa, "Nar" baza stansiyalarının şəbəkə tutumunu da genişləndirir.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.

# Dərbənddə Azərbaycan Dövlət Dram Teatrının başında nə var?




## *Vidadi Qafarov: "Dərbənd Azərbaycan Dövlət Dram Teatrı bağlanmayıb, teatr fəaliyyətini davam etdirir, sadəcə, teatrın bina problemi var"*

## *Mədəniyyət Nazirliyi: "Hazırda Dərbənd Azərbaycan Dram Teatrı bina ilə təmin edilməyib"*

**Dərbənddəki Azərbaycan teatrının fəaliyyətini dayandırması ilə bağlı xəbərlər yayılıb. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutu Rusiya Federasiyasının Dərbənd şəhərində yerləşən Dövlət Azərbaycan Dram Teatrının son durumu ilə bağlı yaydığı açıqlamada qeyd edilir ki, teatrın vəziyyəti çox acınacaqlıdır.**

İnstitutdan bildirilib ki, Dərbənd şəhərində XIX əsrin sonları XX əsrin əvvəllərində həvəskar dərnək kimi fəaliyyətə başlayan Azərbaycan Dram Teatrı 1904-cü ildə rəsmi status, 1934-cü ildə isə dövlət teatrı statusu alıb. Bu teatr 1998-ci ildən Dərbənd Dövlət Azərbaycan Dram Teatrı adlanır. İnstitutun yaydığı açıqlamada qeyd edilir ki, hazırda Dərbənddə Azərbaycan teatrı fəaliyyət göstərmir. Teatrın direktoru Firdovsi Əsgərovun verdiyi məlumata görə, 1998-ci ildə teatra "Rodina" (Vətən) kinoteatrının (1937-ci il tikilisi) yararsız binası verilib. Bu bina teatr normalarına uyğun gəlmədiyi üçün 2000-ci ildə sökülüb və həmin yerdə 230 nəfərlik teatr binasının tikintisinə başlanıb. Lakin işdə uzunmüddətli fasilələr yaranıb, tez-tez iş dayandırılıb, 2006-cı ildə isə layihə tamamilə dondurulub. 2015-ci ildə Nizami Gəncəvi adına parkda teatrın yeni binasının inşası üçün yer ayrılıb, lakin müəyyən qüvvələr teatrın burada tikilməsini əngəlləyib. Beləliklə, Dərbənd Dövlət Azərbaycan Dram Teatrının 1998-ci ildən davam edən bina problemi Dərbəndin 2000 illiyi ərəfəsində də həllini tapmayıb və teatr bugünədək binasız qalıb.

Teatrın kollektivi 57 nəfərdən ibarətdir, onlardan 7 nəfəri Dağıstan Respublikasının əməkdar artistidir. Teatr tez-tez Rusiyanın, Azərbaycanın və Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərlərində olur. Lakin teatrın binası olmadığı üçün Dərbənddə tamaşalar Ləzgi dram teatrının binasında göstərilir. Azərbaycan Dram Teatrının ümumiyyətlə məşq meydançaları da yoxdur.

Teatrın acınacaqlı vəziyyətdə olduğunu teatrşünaslar da bildirir. Onların sözlərinə görə, bir neçə il əvvələ qədər Gürcüstan Azərbaycan Dövlət Dram Teatrı da analoji vəziyyətlə üzləşmişdi, lakin Azərbaycan dövlətinin dəstəyi sayəsində teatr həm fəaliyyətini bərpa edib, həm də bina ilə təmin olunub. Onu da vurğulayaq ki, hazırda sözügedən teatr Heydər Əliyevin adını daşıyır.

Bu gün Dərbənd Azərbaycan Dövlət Dram Teatrının acınacaqlı durumdan çıxarılması, onun bina ilə təmin olunması, habelə fəaliyyətinin tam şəkildə bərpa edilməsi vacib bir məsələ kimi qarşıda durur.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov olayla bağlı baki-xeber.com-a bildirdi ki, teatrın fəaliyyətini dayandırması ilə bağlı yayılan məlumat həqiqəti əks etdirmir. "Dərbənd Azərbaycan Dövlət Dram Teatrı bağlanmayıb, teatr fəaliyyətini davam etdirir, sadəcə, teatrın bina problemi var. Yəni onun özünün binası olmadığı üçün tamaşalarını başqa teatrların binalarında təqdim edirlər. Bu teatrın kollektivi daim iş başındadır və tamaşalar hazırlayırlar. Azərbaycan dövləti də, hər zaman Dərbənd Azərbaycan Dövlət Dram Teatrına dəstək göstərir, köməyini əsirgəmir. Tez-tez həmin teatra Azərbaycandan rejissorlar, digər yaradıcı insanlar göndərilir ki, Dərbənd Azərbaycan Dövlət Dram Teatrında yeni tamaşalar hazırlansın. Ora sonuncu gedib tamaşa qoyan İrəvan Azərbaycan Dövlət Dram Teatrının baş rejissoru Sərvər Əliyev olub".

Dərbənd Azərbaycan Dövlət Dram Teatrının ayrıca binasının olmalı olduğunu qeyd edən V.Qafarovun sözlərinə görə, böyük tarixi yol keçən teatr buna layiqdir. "Dərbənddə Ləzgi, Tabasaran teatrlarının binası var, ancaq təəssüf ki, Azərbaycan teatrının binası yoxdur. Azərbaycan Dram Teatrı hazırda Ləzgi teatrının binasında məşq edir və tamaşalarını orada göstərirlər. Çünki özünün binası yoxdur. Halbuki Dağıstanda ilk yaranan ən mütəşəkkil teatr Azərbaycan teatrı olub. Həmin teatrda Azərbaycan teatrının bir çox görkəmli səhnə xadimləri fəaliyyət göstərib. Azərbaycan Respublikasının teatr kollektivləri də, səhnə xadimləri də tez-tez orada qastrollarda olublar. Demək istəyirəm ki, bu teatr böyük və zəngin yaradıcılıq, fəaliyyət yolu keçib və bu gün də çətinliklərə baxmayaraq fəaliyyətini davam etdirir. Hesab edirəm ki, Dərbənd Azərbayan Dövlət Dram Teatrının bina ilə təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir" - deyə V.Qafarov vurğuladı.

Dərbənd Azərbaycan Dövlət Dram Teatrının bina ilə təmin olunması üçün Mədəniyyət Nazirliyi nə kimi dəstək göstərə bilər?

Nazirliyin informasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən baki-xeber.com-a bildirdilər ki, Dərbənd Azərbaycan Dram Teatrı ilə əlaqə saxlanılır və teatr fəaliyyətini davam etdirir. Qurumdan onu da dedilər ki, teatr direktoru nazirliyin sorğusuna cavab olaraq, hazırda fəaliyyətlərini Dərbənd Ləzgi Dövlət Dram Teatrında davam etdirdiklərini bildirib. "Hazırda Dərbənd Azərbaycan Dram Teatrı bina ilə təmin edilməyib. Buna baxmayaraq, tamaşalarını Ləzgi teatrının binasında qoyurlar. Teatr direktoru qeyd etdi ki, hər ay 15 dəfə şəhər və kəndlərdə tamaşa nümayiş etdirirlər. Yəni teatrın fəaliyyəti bu cür davam edir" - deyə nazirlikdən bildirdilər.

***İradə SARIYEVA***

№ 143 (4041) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

17-19 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Elm adamları Aya minlərlə "su ayısı" göndərdi

**Aya göndərilən nümunələr milyon illər sonra insan irqini bərpa edəcək. "Bilge.az" bildirir ki, aprel ayında Ayda qəzaya uğrayan "Beresheet" kosmik aparatının göyərtəsində "su ayısı" kimi də adlandırılan minlərlə tardigradlar olub.**

8 ayaqlı, beyni və mərkəzi sinir sistemi olan bu xırda məxluqlar hədsiz dözümlüdürlər, olduqca aşağı temperaturda və çətin şərtlərdə sağ qala bilirlər. Tardigradları kosmosa göndərən ABŞ-ın "The Arch Mission Foundation" təşkilatı onların sağ qalacaqlarına ümid edir. "Nuhun gəmisi" və ya Yeri "sığortalamaq" cəhdi göstərmək üçün qeyri-kommersiya təşkilatı "The Arch Mission" kosmosa ay kitabxanası göndərib - bu kitabxadanada Yer planeti haqqında 30 milyon səhifədən ibarət məlumat daşıyan DVD toplusu var. Kitabxana ilə yanaşı, Aya tardigradların nümunələri də göndərilib. "Biz onları ona görə seçmişik ki, xüsusidirlər. Onlar bizim bildiyimiz ən kiçik həyat formalarıdır. Onlar istənilən planetar kataklizmdə praktiki olaraq sağ qala bilərlər. Onlar kosmos vakuumunda, radiasiyada sağ qala bilərlər", - missiyanın nümayəndəsi Nova Spivak mətbuata açıqlamasında deyib. Tədqiqatçılar ümid edirlər ki, tardigradlarla yanaşı, ay kitabxanasındakı informasiyanın da çoxu qəzadan sonra sağ qala bilib - və milyon illər sonra insan həyatı yarada biləcəklər. "Bizim göndərdiyimiz DNK və hüceyrələrin köməyi ilə insan irqini, digər bitkiləri və heyvanları yenidən generasiya etmək mümkündür", - Spivak deyib.



## Ağrını hiss edən və özünü bərpa edən robot "əl" hazırlanıb

Alimlər "Self Healing Soft Robotics" (SHERO) layihəsi çərçivəsində 3 milyon avro məbləğində robot "əl" hazırlayıblar. "ICTnews" xəbər verir ki, sözügedən robot "əl" ağrını hiss edə, zədələri müəyyənləşdirə bilər, həmçinin özünü bərpa etmək qabiliyyətinə malikdir. Bu ideya Kembric Universitetinin komandası tərəfindən düşünülüb və reallaşdırılıb. Alimlər tərəfindən işlənib hazırlanmış robot "əl" zədələri aşkar etmək və özünü bərpa etmək qabiliyyəti sayəsində minlərlə dollara qənaət edə bilər. Bu funksiya sənaye istehsalında işsizlik müddətini azaldacaq, hətta aradan qaldıracaq. Layihənin elmi işçisi doktor Tomas Corc Turutelin yeni hazırlamaya böyük ümidlər bəsləyir. O, bu qurğunun modul və təkamül robot texnikasında faydalı ola biləcəyini hesab edir.



## Smartfon vasitəsi ilə insan beynini idarə edən inplant hazırlanıb

**Qurğu, əvvəllər mümkün olmayan neyrobioloji tədqiqatların keçirilməsinə imkan yaradacaq. Bu, bir çox beyin xəstəliklərinin yaranma səbəblərini üzə çıxardaraq, onların müalicə edilməsi üçün preparatların hazırlanmasında kömək edəcək.**

"Deyerler.org" bildirir ki, Cənubi Koreya və ABŞ-dan olan tədqiqatçılar, preparatların və işığın vasitəsi ilə, beynin müəyyən neyronlarına təsir edən naqilsiz implant hazırlayıb. Siçanlar üzərində sınaqdan keçirilmiş qurğu, preparat dozasına, mikroflora kanallarına və işıq diodlarına malik olan, çoxistifadəli katricdən ibarətdir. Smartfonda olan sadə paroqramın köməyi ilə, blutuz əlaqəsindən istifadə edərək, qurğunu idarə etmək mümkün olacaq. Proqram vasitəsi ilə dərman və işıq stimulyatorların müəyyən iş ardıcıllığını tənzimləmək olacaq. Belə texnologiya neyrobioloqlara beyin fəaliyyəti haqda daha çox məlumat əldə etməsinə və depressiya, Alzheimer kimi xəstəliklrin yaranma səbəblərini aydın etməyə kömək edəcək.



**Elan**

Rəcəbova Firəngiz Ağabəy qızının adına olan, Bakı şəhəri, Sabuncu rayonu, Maştağa qəsəbəsində yerləşən JN 7572 D KOD 0050046 nömrəli 0.06 ha torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Xəlilova İlhamə Oqtay qızının adına məxsus, Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Cəfər Xəndan küçəsi, döngə 1, ev №9 "a" ünvanında yerləşən yaşayış sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu Böyük Dəhnə kənd sakini Yusifov Nəbi Meydan oğlunun adına verilmiş JN : 1128 saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nərimanov rayon, Akademik H.Əliyev küçəsi 111,14 ünvanında qeydiyyatda olan Azərbaycan Respublikası vətəndaşı İbrahimova Fidan Ağalar qızının şəxsiyyət vəsiqəsi itdiyi üşün etibarsız sayılır.





**Qoç** - Günün ilk yarısında yaranan problemlərin sayına və formalarına rəğmən onları dəf edə biləcəksiniz. Hətta, sizə rəğbət bəsləməyən insanlarla belə, dil tapa biləcəksiniz. Günün ikinci yarısı uğurludur.

**Buğa** - Təmaslarda ehtiyatlı və sayıq olun. Ətrafınızdakı insanların hamısına kor-koranə etibar etməyin. Bədxahın intriqa və ya manipulyasiyalarının qurbanına çevrilə bilərsiniz. Huşyar davranın.

**Əkizlər** - Günün emosional fonu əlverişli deyil. Əhvalınız pisləşəcək, özünüzü yorğun və pərişan hiss edəcəksiniz. Yaşam enerjinizin tükəndiyini düşünəcəksiniz. Yaxın ətrafınızdakı insanlarla problemlər yaranacaq.

**Xərçəng** - Müsbət təmayüllərin təsiri güclüdür. Gün uğurlu başlanacaq. Başladığınız işi görmək asan olmasa da, onu tamamlayın. Bütün diqqətinizi karyera və peşəkar nailiyyətlər müstəvisinə yönəltsəniz, qarşınızda açılan yeni üfüqləri görəcəksiniz.

**Şir** - Günün ilk yarısı uğurlu olacaq. Nüfuzlu şəxslə söhbətdə mövqelərinizi müdafiə edin. Planlarınızı reallaşdırın, başladığınız işləri başa vurun. Enerji resurslarınız isə tükənməyə başlayır.

**Qız** - Günün ilk yarısı uğursuz olacaq. Yaxın ətrafınızdakı insanlarla təmaslarda problemlər yaranacaq. Sərt və aqressiv davranmayın. Maliyyə çətinlikləri, planlaşdırılmamış xərclər istsina deyil.

**Tərəzi** - Mənfi təmayüllərin təsiri güclü olsa da, gün ümidsiz deyil. Belədə vaxtınızla yanaşı, qüvvənizə də qənaət edə bilərsiniz. Planların bir qismini nüfuzlu şəxsin yardımı və ya təsiri ilə həll edə bilərsiniz.

**Əqrəb** - Müsbət təmayüllərin təsirindən yararlanaraq başladığınız işləri başa vurun. İradə, qətiyyət və əzm önəmlidir. İlkin işgüzar danışıqlar aparmaq, iş yerinin dəyişdirilməsi ilə bağlı məsələləri müzakirə etmək olar.

**Oxatan** - Siyasi və ictimai prolseslərə maraq arta bilər. Əsl dəyərlər, ədalət uğrunda səylərinizi əsirgəmədən mübarizəyə başlamaq istəyirsiniz. Güclü rəqiblə qarşılaşanda belə, geri çəkilməyin.

**Oğlaq** - Düşərli və məhsuldar gündür. Əvvəllər çözməyə cəsarət etmədiyiniz problemlərin öhdəsindən gələcəksiniz. Peşəkar fəaliyyət müstəvisində əməkdaşlıqla bağlı gözlənilməz təkliflər alacaqsınız.

**Dolça** - Müsbət təmayüllərin təsiri güclüdür. Gün uğurlu alınacaq. İşgüzar danışıqlar məhsuldar olacaq. Sizi istənilən situasiyada dəstəkləməyə hazır insanla qarşılaşacaqsınız. Nüfuzlu hami də ola bilər.

**Balıqlar** - Gün gözlədiyinizdən də uğurlu olacaq. Bel bağlamadığınız işlərdə uğur əldə edə bilərsiniz. İşdə həmkarlarla fikir ayrılıqları və ixtilafları aradan qaldıracaq, son vaxtlar dil tapa bilmədiyiniz insanlarla münasibətləri normallaşdıracaqsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyada ən məşhur brilyantlardan biri satışa çıxarılır

**Dünyada ən məşhur brilyantlardan biri - 14,83 karatlıq "Qızılgül ətri" brilyantı "Alrosa" almazçıxarma şirkəti tərəfindən bu ilin noyabrında satışa çıxarılacaq. "AZƏRTAC" bildirir ki, bor və azot elementlərinin qarışığından yaranan rəngli brilyantlar dünya almaz bazarında ən bahalı hesab olunur.**

Məhz çəhrayı və qırmızı rəngli brilyantlar daha çox alıcı cəlb edir. "Fancy Color Research" fondunun idarə heyətinin sədri, ekspert İden Raçminovun sözlərinə görə, "Qızılgül ətri" brilyantı tarixdə ən bahalı çəhrayı daş ola bilər. Onun sözlərinə görə, qiymətli daşın dəyəri 60-65 milyon dollar arasındadır. "Alrosa" şirkətindən brilyantın hansı qiymətə satışa çıxarılacağını bildirməsələr də, qeyd ediblər ki, "Qızılgül ətri" Rusiyada cilalanmış ən bahalı daş olacaq. Hərracın keçirilməsi üzrə təşkilati məsələlər isə gələn ay həll olunacaq. Bildirilir ki, ən bahalı və 59,6 karat çəkisi olan qiymətli daş 2017-ci ildə Sotbi hərracında 71 milyon dollara satılıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.